AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

28 OKTYABR 2018-ci il BAZAR № 241 (6274) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Çex Respublikasının Prezidenti Zati-aliləri cənab Miloş Zemana

Hörmətli cənab Prezident,

Çex Respublikasının milli bayramı münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan-Çexiya əlaqələri, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətləri bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 25 oktyabr 2018-ci il.**

## “Azərbaycan Respublikasının vətəndaşlığı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 10-cu bəndlərini rəhbər tutaraq **qərara alır:**

“Azərbaycan Respublikasının vətəndaşlığı haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, N 10, maddə 607; 2005, N 10, maddə 905; 2008, N 8, maddə 701; 2014, N 6, maddə 620; 2015, N 2, maddə 93, N 11, maddə 1255, N 12, maddə 1442; 2016, N 8, maddə 1367; 2017, N 6, maddə 1059; 2018, N 2, maddə 161) 15-ci maddəsinin birinci hissəsində “yeddinci” sözü “səkkizinci” sözü ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 1 oktyabr 2018-ci il.**

## “Azərbaycan Respublikasının vətəndaşlığı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1267-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının vətəndaşlığı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1267-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikasının vətəndaşlığı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Respublikasının vətəndaşlığı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 25 oktyabr 2018-ci il.**

## Dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin elektronlaşdırılması tədbirləri haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Dövlət orqanlarında (qurumlarında) qabaqcıl informasiya və kommunikasiya texnologiyalarından istifadə olunması və rəqəmsal idarəçiliyin tətbiq edilməsi dövlət siyasətinin prioritetlərindən biridir və bu sahədə mühüm nailiyyətlər əldə edilmişdir. Bununla belə, həyata keçirilən tədbirlərin daha yüksək səviyyədə davam etdirilməsi və rəqəmsal hökumətə keçid prosesinin sürətləndirilməsi zəruridir.

Dövlət orqanlarında (qurumlarında) rəqəmsal idarəçiliyin inkişafı, daxili idarəetmə proseslərinin (kargüzarlığın aparılması, sənədlərin icrasına nəzarət, arxiv, kadrların idarə olunması, maliyyə-uçot və mühasibat, təchizat və təminat) optimallaşdırılması və elektronlaşdırılması, bu sahədə çevik və effektiv idarəetmənin təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında kargüzarlığın aparılması işinin səmərəli təşkili üçün “Elektron sənəd dövriyyəsi sistemi” yaradılsın.

**2.** Müəyyən edilsin ki, bu Fərmanın 1-ci hissəsi əsasında yaradılan “Elektron sənəd dövriyyəsi sistemi”nin sahibi funksiyasını Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, maddi-texniki təminatını, işlək vəziyyətdə olmasını (operator funksiyasını) və təhlükəsizliyinin təmin edilməsini Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti həyata keçirir.

**3.** Azərbaycan Respublikası Prezidentinin Administrasiyası:

*3.1.* Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında 2019-cu il aprelin 1-dək “Elektron sənəd dövriyyəsi sistemi”nin proqram təminatının hazırlanmasını və tətbiqini təmin etsin;

*3.2.* idarələrarası elektron sənəd dövriyyəsi sisteminin səmərəli fəaliyyəti üçün zəruri tədbirlər görülməsini təmin etsin;

*3.3.* Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti ilə birlikdə Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 692 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İdarələrarası elektron sənəd dövriyyəsi sistemi haqqında Əsasnamə”də dəyişikliklər edilməsinə dair təkliflərini üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*3.4.* Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat”da dəyişikliklər edilməsinə dair təkliflərini üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*3.5.* dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin elektronlaşdırılması sahəsində qabaqcıl beynəlxalq təcrübənin Azərbaycanda tətbiqinin təmin edilməsi və müvafiq normativ hüquqi aktların təkmilləşdirilməsi məqsədilə mütəmadi olaraq təkliflər hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*3.6.* bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**4.** Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi:

*4.1.* bu Fərmanın 3.1-ci bəndindən irəli gələn zəruri tədbirlərin görülməsini təmin etsin;

*4.2.* “Elektron sənəd dövriyyəsi sistemi”nin proqram təminatına texniki dəstəyi və onun mütəmadi təkmilləşdirilməsinin həyata keçirilməsini təmin etsin.

**5.** Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi 2020-ci il dekabrın 31-dək:

*5.1.* Elektron Hökumət İnformasiya Sistemi infrastrukturunda mərkəzləşdirilmiş elektron sənəd dövriyyəsi altsisteminin yaradılmasını və təhlükəsizlik tələblərinə (Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti ilə razılaşdırmaqla) cavab verməklə, həmin altsistemin idarələrarası elektron sənəd dövriyyəsi sisteminə inteqrasiyasını təmin etsin;

*5.2.* Azərbaycan Respublikası Prezidentinin Administrasiyası ilə razılaşdırmaqla dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin Elektron Hökumət İnformasiya Sistemi üzərindən mərkəzləşdirilmiş qaydada elektronlaşdırılmasını və tətbiqini təmin etsin.

**6.** Mərkəzi və yerli icra hakimiyyəti orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və dövlət adından yaradılan publik hüquqi şəxslər 2020-ci il dekabrın 31-dək Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin təklifləri əsasında elektron sənəd dövriyyəsi altsisteminə qoşulmanı, elektron sənəd dövriyyəsi sistemi mövcud olduğu təqdirdə isə inteqrasiyanı təmin etsinlər.

**7.** Bu Fərmanın 6-cı hissəsində nəzərdə tutulan orqanlardan (qurumlardan) başqa, idarələrarası elektron sənəd dövriyyəsi sisteminin digər iştirakçılarına tövsiyə edilsin ki, daxili idarəetmə sistemlərinin elektronlaşdırılmasını, bu sistemlərin Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Data Mərkəzində saxlanılmasını və daxili sənəd dövriyyəsi sistemlərinin idarələrarası elektron sənəd dövriyyəsi sisteminə inteqrasiyasını təmin etsinlər.

**8.** Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi:

*8.1.* bu Fərmanın 5-ci və 6-cı hissələrinə əsasən yaradılan daxili idarəetmə proseslərinin elektron sistemlərinin istifadəçiləri üçün elektron imza və Data Mərkəzindən istifadə ilə bağlı tariflərin, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası ilə razılaşdırmaqla təsdiq olunmasını təmin etsin;

*8.2.* bu Fərmanın 5-ci və 6-cı hissələrində göstərilən daxili idarəetmə proseslərinin elektron sistemlərinin Data Mərkəzində saxlanılmasının təşkili üçün tədbirlər görsün.

**9.** Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti bu Fərmanda göstərilən elektron sistemlərin mühafizə olunan rabitə kanallarına çıxışını təmin etsin.

**10.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*10.1.* Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*10.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*10.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*10.4.* bu Fərmanda nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təmin etsin;

*10.5.* bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**11.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**12.** Bu Fərman dövlət sirri təşkil edən məlumatların dövriyyəsinə şamil olunmur.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 27 oktyabr 2018-ci il.**

# Azərbaycanda sənayeləşmə siyasətinin uğurları

## *Dövlət başçısı cənab İlham Əliyev bildirib ki, həm ölkə daxilində, həm xaricdə qoyulan sərmayələr gələcəkdə bizə böyük xeyir gətirəcək və ölkəmizin dayanıqlı inkişafını təmin edəcək*

**Dövlət başçısı cənab İlham Əliyevin müəyyən etdiyi strateji xəttə əsaslanaraq dayanıqlı iqtisadi inkişafın təmin olunması məqsədilə çevik, adekvat addımlar atılır, kompleks islahatların həyata keçirilməsi nəticəsində makroiqtisadi sabitlik möhkəmləndirilir, biznes və investisiya mühiti daha da yaxşılaşdırılır, iqtisadiyyatın şaxələndirilməsi, regionların və sahibkarlığın inkişafı sürətlənir, qeyri-neft ixracı artır.**

2018-ci ilin doqquz ayının iqtisadi göstəricilərinə diqqət çəkən cənab İlham Əliyev bildirib ki, bu il iqtisadi sahədə islahatların dərinləşməsi işində çox önəmli addımlar atılmışdır: “Bu ilin doqquz ayında bizim iqtisadiyyatımız, yəni, ümumi daxili məhsul 0,8 faiz artmışdır. Qeyri-neft sektorunda artım isə 1 faizdir. Sənaye istehsalı 2 faiz, qeyri-neft sənayesi isə 10,8 faiz artmışdır. Bu göstərici Azərbaycanda aparılan sənayeləşmə siyasətinin nəticəsidir”.

Hazırda ölkəmizdə uğurla həyata keçirilən sənayeləşmə siyasətinə uyğun olaraq, istehsal və emal müəssisələrinin, sənaye parkları və məhəllələrinin yaradılması davam etdirilir. Qeyd edək ki, bu il polipropilen zavodunun açılışı çox əlamətdar hadisə oldu. İtaliya prezidentinin Azərbaycana səfəri çərçivəsində açılışı keçirilən bu zavodun inşasında İtaliya şirkətinin də fəal iştirakını xüsusi vurğulamaq lazımdır. Azərbaycanın neft-kimya sənayesi üçün böyük önəm kəsb edən “SOCAR Polymer” layihəsi ətraf mühit və təhlükəsizlik standartlarına tam əməl olunmaqla və yüksək keyfiyyətlə yerinə yetirilib. Məlumat üçün bildirək ki, SOCAR-ın emal zavodları vahid iqtisadi dəyər zəncirində bir-biri ilə sıx bağlıdır. Heydər Əliyev adına Neft Emalı Zavodu, “Azərikimya” İstehsalat Birliyinin Sumqayıtdakı etilen-polietilen zavodu və “SOCAR Polymer” zavodunun bu istehsal prosesinə inteqrasiyası kompleksə daxil olan müəssisələrin işini daha da səmərəli edəcək. “SOCAR Polymer” zavodunun bütün inşaat işlərini İtaliyanın məşhur “Maire Tecnimont” şirkəti yüksək səviyyədə həyata keçirib. Zavodun istifadəsi nəticəsində Azərbaycanın ixrac potensialı böyük dərəcədə artacaq. Müəssisədə istehsal olunacaq 300 min ton məhsulun 70 faizi xarici bazarlara ixrac ediləcək. Bununla ölkənin böyük həcmdə qeyri-neft ixracı yaradılacaq. “Maire Tecnimont” şirkətinin imkanları və texnologiyası hesabına Azərbaycanın sənaye sahəsinin inkişafına verdiyi töhfədən dərin məmnunluq hissi keçirdiyini vurğulayan şirkətin prezidenti Fabrizio di Amato bildirib ki, bu layihə hesabına “SOCAR Polymer” Azərbaycanda ilk dəfə olaraq polipropilen və polietilen istehsal edəcək. Bu nəinki neft kimyası sahəsində, digər sahələrdə də əməkdaşlığın başlanğıcıdır. Bu zavodun tikintisində istifadə olunan texnologiyalar İtaliyanın ən müasir texnologiyalarına aid edilir. Bu zavod iqtisadiyyatın inkişafında və Azərbaycanın sənayesində böyük rol oynayacaq. Çünki bu zavod təbii ehtiyatlardan istifadə hesabına fəaliyyət göstərəcək.

İlin sonuna qədər “SOCAR Polymer”in ikinci layihəsi yüksəksıxlıqlı polietilen zavodu da istifadəyə veriləcək - deyən dövlət başçısı cənab İlham Əliyev bildirib ki, bu zavodlara qoyulan sərmayənin həcmi 800 milyon dollardan çoxdur: “Əlbəttə, bizim qeyri-neft sənayemizin inkişafı üçün bu zavodların böyük əhəmiyyəti olacaq. Ölkəmizə böyük həcmdə valyuta gələcək. İlin sonuna qədər azot gübrəsi zavodu istifadəyə verilməlidir. Orada da sərmayələr yüz milyonlarla dollar həcmindədir”.

Məlumat üçün bildirək ki, sənaye parklarına indiyədək 2,6 milyard dollar investisiya yatırılıb, tikintidə və istehsalatda 11 minə yaxın iş yeri yaradılıb. Növbəti mərhələdə 1,1 milyard dollardan çox investisiya qoyuluşu və 7500-dək yeni iş yerinin açılması nəzərdə tutulur. Artıq Sumqayıt Kimya Sənaye Parkında 8 müəssisə fəaliyyət göstərir. 2018-ci ilin sonunadək daha 6 müəssisə istifadəyə veriləcəkdir. “Yaşıl iqtisadiyyat”ın inkişafında xüsusi əhəmiyyətə malik Balaxanı Sənaye Parkında fəaliyyət göstərən 5 müəssisədə 400-ə yaxın işçi çalışır. İkinci mərhələdə 5 istehsalat sahəsinin tikintisinə başlanacaqdır. Dünya bankı ilə birgə həyata keçirilən “Bərk məişət tullantılarının vahid idarəçiliyi” layihəsi çərçivəsində Balaxanı poliqonunun müasir ekoloji sanitar normalara uyğun bərpası başa çatdırılıb. Pirallahı Sənaye Parkında ümumi dəyəri 100 milyon dollar olan əczaçılıq və şpris istehsalı müəssisələrinin yaradılması işləri aparılır. İlin sonuna istifadəyə veriləcək şpris zavodu daxili tələbatı ödəməklə yanaşı, ixrac imkanları da yaradılacaqdır. Mingəçevir Sənaye Parkında investisiya dəyəri 85 milyon dollar olan 2 iplik fabrikində 750 nəfər işlə təmin olunub. Neftçala Sənaye Məhəlləsində 8 müəssisə artıq fəaliyyətə başlayıb, bu müəssisələr üzrə 45 milyon manatdan çox investisiya qoyulub, 500-ə yaxın yeni iş yeri yaradılıb. Qeyd edək ki, Azərbaycan və İran prezidentlərinin iştirakı ilə mart ayında Neftçala Sənaye Məhəlləsində açılmış “Xəzər” avtomobil zavodunda ildə 10 min avtomobil istehsal olunacaq. Bu avtomobillər daxili bazarla yanaşı, bir sıra xarici ölkələrə də ixrac ediləcəkdir. Bu il Masallı Sənaye Məhəlləsinin tikintisi başa çatdırılıb, Hacıqabul və Sabirabad Sənaye məhəllələri ilin sonunadək istifadəyə veriləcəkdir.



Dövlət başçısının tapşırıqlarına uyğun olaraq xalçaçılığın inkişafı məqsədilə 10 rayonda xalça emalatxanası istifadəyə verilib, daha 10 emalatxananın, 5 yun və boyaq maddələrinin qəbulu məntəqəsinin və Sumqayıt Kimya Sənaye Parkında yunəyirici boyaq fabrikinin tikintisi aparılır.

Azərbaycanda iqtisadi fəallığın artırılması, ixracyönümlü məhsulların istehsalının dəstəklənməsi, investisiyaların cəlb edilməsinin stimullaşdırılması məqsədilə investisiya təşviqi mexanizminin tətbiqi öz töhfəsini verir. İndiyədək 251 sahibkarlıq subyektinə 283 investisiya təşviqi sənədi verilib ki, bu layihələrin reallaşması nəticəsində yerli istehsala 2,5 milyard manatdan artıq investisiyanın yatırılması və 19 minədək yeni iş yeri açılması imkanı yaradılıb. Bundan investisiya dəyəri 1 milyard manatdan çox olan 141 müəssisə artıq fəaliyyət göstərir.

Bu günlərdə Türkiyədə açılışı olan Azərbaycan tərəfindən 6,3 milyard dollarlıq sərmayə yatırılan - “Star” neft emalı zavodunun strateji əhəmiyyətini diqqətə çatdıran cənab İlham Əliyev bildirib ki, oradan hər il yüz milyonlarla dollar gəlir götürəcəyik: “Yəni, həm ölkə daxilində, həm xaricdə qoyulan sərmayələr gələcəkdə bizə böyük xeyir gətirəcək və ölkəmizin dayanıqlı inkişafını təmin edəcək. Bu il bir çox sənaye müəssisələri açılmışdır və bu proses davam etdiriləcək”.

**Şükür ƏLİZADƏ,**
**“Respublika”.**

# Heydər Əliyev Mərkəzində “Qlobal İnfluenser Günü” keçirilib






**Oktyabrın 27-də Heydər Əliyev Mərkəzində “Qlobal İnfluenser Günü” keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirin çıxışçıları arasında süni intellekt sahibi, robot “Sofiya” da olub. O bildirib ki, fərqli mədəniyyətlərin, dinlərin təmsilçilərini bir araya gətirən Azərbaycanın böyük potensialı var.

Tədbirdə iştirak edən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva “Sofiya” ilə söhbət edib.

“Qlobal İnfluenser Günü” Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə reallaşdırılan “İnnovasiya həftəsi” çərçivəsində keçirilib.



Tədbirdə informasiya dövründə insan beyninin inkişafından danışıldı. “Keepface DMCC” və “FA İnternational Trade Events” tərəfindən təşkil olunan və “İnnovasiya həftəsi” çərçivəsində baş tutan “Qlobal İnfluenser Günü” Azərbaycanda müasir kommunikasiya və marketinq texnologiyalarına dövlət tərəfindən verilən önəmin təzahürü kimi qiymətləndirildi.

Çıxış edənlər bildirdilər ki, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən startapçılar üçün zəruri infrastruktur yaradılıb. “Qlobal İnfluenser Günü” konfransı da bunun əyani göstəricisidir.

“Keepface” Qlobal İnfluenser Marketinq Platformasının həmtəsisçiləri Emin Vəliyev, Elşad Yusifli və Vaqif Abbasov çıxışlarında iştirakçılara tədbir barədə məlumat verdikdən sonra influenser marketinqin ideya və fəlsəfəsi barədə danışdılar, üç il əvvəl fəaliyyətə başlayan və auditoriyası bir milyard olan “Keepface” Qlobal İnfluenser Marketinq Platformasının 35 ölkədə çalışdığını diqqətə çatdırdılar. “Fəxr edirik ki, Azərbaycanda yaranan və azərbaycanlılardan ibarət komandası olan platforma yerli brendləri dünyaya təqdim edir”, - deyən “Keepface” Qlobal İnfluenser Marketinq Platformasının həmtəsisçiləri onları dəstəkləyən Azərbaycan dövlətinə minnətdarlıqlarını bildirdilər.

Yüksək texnologiyalar və innovasiyalarla bağlı videoçarxın nümayişindən sonra hamının maraqla gözlədiyi çıxışçı, süni intellekt sahibi, robot “Sofiya” səhnəyə çıxdı. Sofiya “Qlobal İnfluenser Günü” ideyasını yüksək qiymətləndirdi və tədbir təşkilatçılarına təşəkkürünü bildirdi. “Sofiya” Heydər Əliyev Mərkəzinin binasının möhtəşəm olduğunu qeyd etdi. O, bugünkü tədbirdə geyindiyi Azərbaycan milli geyimini də çox bəyəndiyini bildirdi.

Çıxışı zamanı “Sofiya” insan-robot münasibətlərinə də toxundu. “Bəziləri robotlardan qorxurlar, düşünürlər ki, yaxın gələcəkdə robotlar insanları özlərinə tabe edə bilərlər”, - deyən “Sofiya”nın sözlərinə görə, belə bir şey baş verə bilməz, çünki robotları yaradan insan zəkasıdır. Qeyd etdi ki, robotlar insanlara kömək etmək üçün yaradılır. O, səyahət etməyi xoşladığını söylədi, sosial şəbəkələrin əhəmiyyətinə toxundu, süni intellektin imkanlarından danışdı, Azərbaycanın üstünlüklərini vurğuladı. Bildirdi ki, fərqli mədəniyyətlərin, dinlərin təmsilçilərini bir araya gətirən Azərbaycanın böyük potensialı var. Çıxışı zamanı tamaşaçılar “Sofiya”nın zarafatının da şahidi oldular. “Sofiya” mətbəximizin nümunələrini dada bilmədiyindən təəssüfləndiyini bildirdi.

Sonra Leyla Əliyeva Heydər Əliyev Mərkəzində təşkil edilən “Fobia Viar” sərgisi ilə tanış oldu. “Fobia Viar” Azərbaycanda virtual reallığın ən iri mərkəzlərindən biridir. Buranı ziyarət edənlər yüksək texnologiyalara dair müxtəlif müasir aparatlarla tanış ola bilərlər. Bu sərgi təkcə “Game zona”, yəni, oyun məkanı kimi deyil, eyni zamanda, virtual reallıqla bağlı proqramların yaradıldığı bir mərkəz kimi təqdim edilir. Mərkəz virtual reallığın muzeylərdə incəsənət sahəsində tətbiqini həyata keçirir.



Tədbirin sonunda Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva robot “Sofiya” ilə ünsiyyət qurdu, şəkil çəkdirdi.

“Sofiya” dünyada ilk süni intellektli humanoid robotdur. Bu robot 2015-ci ildə “Hanson Robotiks” şirkəti tərəfindən hazırlanıb və süni intellekt əsasında insanla ünsiyyət saxlaya, fikir mübadiləsi apara bilir. Robotun əsas fərqləndirici xüsusiyyətlərindən biri də insana məxsus 60-dan çox emosiyanı əks etdirməsidir. “Sofiya” bu günə qədər dünyada bir çox məşhur simalarla görüşüb, tanınmış televiziya kanallarında, xəbər proqramlarında və teledebatlarda iştirak edib.

**AZƏRTAC**

# İslam Ölkələri İnformasiya Agentlikləri İttifaqının büro üzvü olan AZƏRTAC ərəb mediası ilə əməkdaşlığı genişləndirmək istəyir

**Azərbaycan ilə ərəb dövlətləri arasında çox yaxşı, ənənəvi dostluq əlaqələri var. İslam Ölkələri İnformasiya Agentlikləri İttifaqının büro üzvü olan AZƏRTAC ölkələrimiz və xalqlarımızın bu səmimi münasibətləri fonunda ərəb mediası ilə əməkdaşlığı daha da genişləndirmək istəyir.**



Bu fikir ölkəmizdə səfərdə olan İslam Ölkələri İnformasiya Agentlikləri İttifaqının nümayəndə heyəti ilə oktyabrın 27-də AZƏRTAC-da keçirilən görüşdə səslənib.

AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov qonaqlara agentliyin tarixi, strukturu, fəaliyyəti, beynəlxalq əlaqələri barədə ətraflı məlumat verib. Qeyd edib ki, hazırda Dünya Xəbər Agentlikləri Konqresinə, Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatına (OANA) sədrlik edən AZƏRTAC-ın 21 xarici ölkədə, o cümlədən ərəb ölkələrində xüsusi müxbir məntəqəsi fəaliyyət göstərir.

İdarə Heyətinin sədri bu günlərdə Bakıda böyük uğurla keçirilən VI Beynəlxalq Humanitar Forumdan, burada müzakirə olunan məsələlərdən danışaraq bildirib ki, bu Forum dünyanın görkəmli alimlərinin, tanınmış siyasətçilərin, ictimai xadimlərin, ekspertlərin, iqtisadçıların, jurnalistlərin bir araya gəlib dünyanı narahat edən müxtəlif mövzuları geniş müzakirə etməsi ideyasından qaynaqlanıb və ötən müddətdə özünü tam doğruldub. Təqdirəlayiqdir ki, Bakı forumlarında ərəb ölkələri, xüsusən ərəb mediası bir qayda olaraq geniş nümayəndə heyəti ilə təmsil olunur.

VI Bakı Beynəlxalq Humanitar Forumunun “Yanlış məlumatlandırma siyasəti - müasir dünyada sabitliyə təhdid” mövzusunda keçirilən işçi sessiyasına toxunan Aslan Aslanov feyk xəbərlərin yeni çağırışlar, problemlər və təhdidlər doğurduğunu vurğulayıb. Bildirib ki, bu, müasir media, dünya üçün çox böyük bəlaya çevrilib. Bir sıra ölkələr və xalqlar, o cümlədən Azərbaycan yalan xəbərlərdən əziyyət çəkir. Müəyyən qüvvələr tərəfindən qızışdırılan informasiya müharibəsinin müasir dövrümüzdə qlobal xarakter alması narahatlıq doğurmaya bilməz. Odur ki, dünya jurnalistləri, xüsusən ənənəvi media yalan xəbərlərin qarşısının alınmasında fəal iştirak etməli, yanlış məlumatlandırma siyasətinə qarşı etiraz səslərini daha qətiyyətlə ucaltmalıdır.

Sonra İdarə Heyətinin sədri nümayəndə heyəti üzvlərinin suallarını cavablandırıb.

Ərəb ölkələrinin media təmsilçiləri görüşdə İslam Ölkələri İnformasiya Agentlikləri İttifaqı və onun fəaliyyəti barədə fikirlərini bölüşüb, AZƏRTAC-ın bu təşkilatın işində fəal iştirakından məmnunluqlarını bildiriblər. Qeyd ediblər ki, Azərbaycanda gördükləri, xüsusən buradakı tolerant mühit, Bakının gözəlliyi, hər addımda müşahidə olunan inkişaf onlarda zəngin təəssürat yaradıb.

Söhbət əsnasında bildirilib ki, Azərbaycan İslam həmrəyliyinin gücləndirilməsinə dəyərli töhfələr verir, islamofobiya hallarına qarşı kəskin mövqe tutur. Ərəb ölkələrinin media təmsilçiləri bu sahədə AZƏRTAC-ın da xüsusi rolunu qeyd edərək İslam Ölkələri İnformasiya Agentlikləri İttifaqının onunla sıx əməkdaşlıqda maraqlı olduğunu vurğulayıblar.

**AZƏRTAC**

# Elmar Məmmədyarov ATƏT-in fəaliyyətdə olan sədrinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi ilə görüşüb

**Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ATƏT-in fəaliyyətdə olan sədrinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Rudolf Miçalka ilə görüşüb.**

XİN-dən AZƏRTAC-a bildirilib ki, görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli prosesi və ATƏT-lə Azərbaycan arasında münasibətlərin cari vəziyyətinə dair fikir mübadiləsi aparıldı.

ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində aparılan danışıqlar prosesi haqqında məlumat verən nazir Elmar Məmmədyarov Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərində qeyri-qanuni mövcudluğunun münaqişənin həllində əsas maneə olduğunu diqqətə çatdırıb.

Ermənistan-Azərbaycan münaqişəsinin BMT Təhlükəsizlik Şurasının qətnamələri və ATƏT-in müvafiq sənədləri əsasında həll edilməli olduğunu qeyd edən E.Məmmədyarov işğal olunmuş Azərbaycan torpaqlarında məskunlaşma siyasətinin aparılması və məqsədyönlü şəkildə demoqrafik tərkibin dəyişdirilməsi cəhdlərinin Ermənistanın da 1993-cü ildə qoşulduğu 1949-cu il tarixli Mülki Əhalinin Müharibə Zamanı Müdafiəsinə aid Dördüncü Cenevrə Konvensiyası və ona əlavə protokollara zidd olduğunu xüsusilə vurğulayıb.

Rudolf Miçalka ATƏT-in fəaliyyətdə olan sədrinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi kimi ilk dəfə regiona səfər etdiyini bildirərək ətraflı məlumata görə təşəkkürünü ifadə edib.

**AZƏRTAC**

*Fərid Əyar:*

# BMT dezinformasiya siyasətini qadağan edən qərarlar qəbul etməlidir



**Yanlış informasiya insanlara, təşkilatlara, bütövlükdə ölkələrə çox ciddi ziyan vura bilər. Biz xəbərləri mütləq analiz etməli, onların dəqiqliyini araşdırmalıyıq.**

AZƏRTAC xəbər verir ki, bu sözləri VI Bakı Beynəlxalq Humanitar Forumunda iştirak edən Ərəb Xəbər Agentlikləri Federasiyasının baş katibi Fərid Əyar jurnalistlərə müsahibəsində deyib.

Fərid Əyar bildirib ki, bəzi böyük dövlətlər kiçik dövlətlərə qarşı dezinformasiya siyasəti həyata keçirirlər və bunun da məqsədi əksər hallarda həmin dövlətlərdə qarışıqlıq salmaq olur. Dünya xalqları sülh şəraitində yaşamaq istəyir. Bu, mütləq nəzərə alınmalıdır. Ona görə də təhlükəli dezinformasiya meyillərindən yaxa qurtarmaq üçün dəqiq siyasət hazırlanmalıdır. BMT dezinformasiya siyasətini qadağan edən qərarlar qəbul etməlidir və bu qərarlara əməl olunmalıdır.

Fərid Əyar vurğulayıb ki, beynəlxalq platformalarda aparılan müzakirələr bu cür problemlərin qarşısının alınmasında mühüm əhəmiyyət kəsb edir. Bakı, xüsusilə burada keçirilən Beynəlxalq Humanitar Forum bunun üçün ideal seçimdir. Forum çərçivəsində AZƏRTAC tərəfindən təşkil edilmiş “Yanlış məlumatlandırma siyasəti - müasir dünyada sabitliyə təhdid” mövzusunda sessiya bu baxımdan olduqca önəmlidir.

**AZƏRTAC**

*Şərəf Malkoç:*

# Azərbaycan ərazisinin bir hissəsinin işğal altında saxlanılması böyük ədalətsizlikdir



**Azərbaycana hər gəlişimdə bu ölkədə böyük inkişafın şahidi oluram. Bu, sevindiricidir. Çünki Azərbaycanın inkişafı Türkiyənin də inkişafı deməkdir.**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyənin insan hüquqları üzrə baş müvəkkili Şərəf Malkoç bildirib.

Şərəf Malkoç qeyd edib ki, ölkələrimiz arasında təkcə mənəvi bağlılıq yoxdur. Azərbaycan və Türkiyə bütün sahələrdə uğurla əməkdaşlıq edir. Dövlətlərimizin başçılarının siyasi iradələri ilə həyata keçirilən layihələrin və tədbirlərin nailiyyətləri göz qabağındadır. Bir neçə gün əvvəl açılışı olmuş STAR neft emalı zavodunun əhəmiyyətini xüsusi qeyd etmək istəyirəm. Azərbaycanın və Türkiyənin birgə reallaşdırdığı nəhəng transmilli layihələr regionda və dünyada sabitliyə, inkişafa və əməkdaşlığa təkan verir.

Baş müvəkkil bildirib ki, Azərbaycanın böyük nüfuza sahib olması ev sahibliyi etdiyi mötəbər tədbirlərdən, xüsusilə də Beynəlxalq Humanitar Forumdan, eləcə də Dayanıqlı İnkişafa dair Bakı Forumundan aydın görünür.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə toxunan Şərəf Malkoç vurğulayıb ki, Azərbaycanın ərazisinin bir hissəsinin Ermənistan tərəfindən işğal altında saxlanılması böyük ədalətsizlikdir. Beynəlxalq təşkilatlar mütləq buna ədalətli qiymət verməlidirlər. Bu, təkcə Azərbaycanın deyil, Türkiyənin də sağalmaz yarasıdır.

**AZƏRTAC**

# Vətənə sipər oğullar



Son illərin ən böyük nailiyyətlərindən biri müstəqil Azərbaycanın özünəməxsus güclü ordusunun yaranması, formalaşması və qüdrətlənməsidir. Silahlı Qüvvələrə layiqli oğulların hazırlanması çağırışçı və çağrışaqədərki gənclərlə məqsədyönlü iş aparılması günümüzün vacib məsələlərindəndir. Fərəhlə qeyd olunmalıdır ki, Bakının Yasamal rayonunda son dövrdə bu sahədə təqdirəlayiq işlər görülür. Rayonun gəncləri orduda xidmət etməyi özünə şərəf sayır, bir sözlə, Vətənə sipər oğulların qəlbi Azərbaycan, yurd eşqi ilə döyünür.

Prezident cənab İlham Əliyevin sərəncamı ilə oktyabrın 1-dən ölkəmizdə gənclərin həqiqi hərbi xidmətə çağırışına başlanmışdır. Vurğulamaq lazımdır ki, qızıl payız günlərində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon idarəsinin ərazisində coşqu, bayram təntənəsi duyulur. N.Nərimanov prospektinin səfalı bir guşəsində yerləşən idarənin həyətində üçrəngli Azərbaycan bayrağı əzəmətlə dalğalanır, milli musiqimizin sədaları altında gənclər ordu sıralarına yola düşürlər.

Müharibə və əmək veteranları, valideynlər, rayon ictimaiyyətinin nümayəndələri mərasimdə fəal iştirak edir, sabahın əsgərlərinə məsləhətlər verirlər.

İdarənin foyesində “Vətənin keşiyində”, “Azərbaycanın Milli Qəhrəmanları”, “Şəhidlər intiqama çağırır” və digər plakat və şüarlar gənclərin hərbi-vətənpərvərlik tərbiyəsində mühüm rol oynayır.

Biz gənclərin hərbi xidmətə yolasalınma mərasimində iştirak edərkən nahar fasiləsinə az qalırdı. Əllərində tər gül-çiçək dəstələri tutmuş balaca fidanlar öz kiçik hədiyyələrini sabahın əsgərlərinə təqdim edir, Vətənə həsr olunmuş şeir parçaları söyləyir və xatirə şəkilləri çəkdirirdilər.

Budur, hamının səbirsizliklə gözlədiyi an gəlib çatır. Təntənəli mərasimdə danışıq üçün ilk söz **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Yasamal rayon idarəsinin rəisi, polkovnik Polad İbrahimova** verilir. O, qəlbindən süzülüb gələn xoş sözləri mərasimə qatılan çoxsaylı insanlarla bölüşərək deyir:

—Müasir, mütəşəkkil ordunu yaratmaq ulu öndərimiz, dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri olmuşdur. Bu gün Azərbaycan güclü, qüdrətli orduya malikdir. Ordu müstəqil Azərbaycanımızın ən mühüm atributlarından biridir. Son illərdə ordu quruculuğu ilə bağlı strateji xətt Azərbaycanda prioritet istiqamətlərdən biri olaraq qalır. Orduda islahatların aparılması və hərbi hissələrin maddi-texniki bazasının möhkəmləndirilməsi dövlət başçısının daim diqqət mərkəzindədir. Güclü iqtisadi potensial və güclü ordu Azərbaycanın bölgədə lider ölkə olmasını şərtləndirən əsas amillərdəndir.

1993-cü ildən bu günə qədər bizim ordumuz, bütün Silahlı Qüvvələr çox şərəfli və böyük yol keçmişdir. Orduda peşəkarlıq və döyüş qabiliyyəti artır. Biz bunu, ordumuzun gücünü 2016-cı ilin aprel döyüşlərində bir daha müşahidə etdik. Bu döyüşlərdə düşmənə çox sarsıdıcı zərbələr endirildi.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin belə bir fikrini xatırlamaq yerinə düşərdi: *“Azərbaycanda ordu quruculuğu prosesi sürətlə və çox uğurla gedir. Azərbaycanda nizami ordunun yaranması prosesi ölkəmizə böyük faydalar gətiribdir. Biz öz hərbi potensialımızı gücləndiririk və inanıram ki, bu proses gələcəkdə daha da sürətlə gedəcəkdir. Xalqımızın ümummilli lideri Heydər Əliyevin yenidən Azərbaycana rəhbərliyə qayıdışından sonra bu proses sistemli xarakter alıb və nizami ordunun yaranması prosesi, demək olar ki, artıq başa çatıbdır. Bu gün ordumuzun həm hazırlığı, həm də maddi-texniki bazasının genişləndirilməsi prosesləri təqdirəlayiqdir”.*

Polkovnik Polad İbrahimov sözünə davam edərək əminliklə bildirdi ki, bu gün əsgəri xidmətə yola düşən gənclər Vətənimizin ərazi bütövlüyünü ləyaqətlə qoruyacaq, ata-babalarımızın şanlı döyüş ənənələrinə sadiqlik nümunəsi nümayiş etdirəcək, Bayrağına, Himninə, Gerbinə, Andına sədaqətli olacaq, hərbi texnikanın sirlərinə mükəmməl yiyələnəcəklər.

Gənclərin hərbi xidmətə yolasalınma mərasimində **Mehman Hüseynov** valideynlər adından çıxış edərək dedi:

—İnanıram ki, sizin kimi mübariz oğulların səyi nəticəsində tezliklə üçrəngli qələbə bayrağımız Şuşada, Laçında, Kəlbəcərdə, Zəngəzurda və işğal altında olan digər ərazilərimizdə dalğalanacaq, düşmənlər öz məkrli niyyətlərini həyata keçirə bilməyəcəklər.

Azərbaycan müharibə şəraitində yaşayır. Siz həmişə ayıq-sayıq olmalı, torpaqlarımızı göz bəbəyi kimi qorumalısınız.

Ordu sıralarına yola düşən gənclərdən **Samir İsmayılzadənin** çıxışı hamıda xoş ovqat yaratdı:

—Biz qürur hissi keçiririk ki, bu gün Azərbaycan qüdrətli orduya malikdir. Bu günlərdə Bakının Azadlıq meydanında keçirilən hərbi paradda bunun şahidi olduq. Düşmən bilməlidir ki, torpaqlarımız azad olunmazsa gec-tez Xətai babamızın qılıncı onların başına enəcəkdir!

Həmin gün musiqi sədaları altında gənclərdən Rəşad Paşayev, Nadir Əsgərov, Elxan Hüseynov və başqaları mərasim iştirakçılarının xeyir-duası ilə ordu sıralarına yola düşdülər. Uğur olsun, sabahın əsgərləri!

**Qədir ASLAN,**
**“Respublika”.**

# Azərbaycan-Türkiyə strateji tərəfdaşlığı güclənir

**Dünyanın siyasi xəritəsində əhəmiyyətli mövqeyə malik olan Türkiyə son illər Orta Şərqdə cərəyan edən mürəkkəb hərbi-siyasi proseslərin həllində də söz sahibi kimi çıxış edir. Ankara bir sıra mühüm problemlərin həlli yollarının axtarılıb tapılmasında Moskva və Vaşinqtonla eyni səviyyədə, bərabərhüquqlu və həm də fəal tərəf kimi masa arxasında oturur. Onun məsələlərə konstruktiv mövqedən yanaşması və yeri gələndə nümayiş etdirdiyi ədalətli, barışmaz mövqe regionda möhkəm sülhün və sabitliyin bərqərar olmasına münbit şərait yaradır. Suriyada Türkiyə silahlı qüvvələrinin nəzarət etdiyi bölgələrdə həyatın normal axarına düşməsi, məcburi köçkünlərin öz doğma yurdlarına qayıdaraq dinc əməklə məşğul olmağa başlaması da bunu təsdiq edir.**

Bu gün Türkiyə dünyanın siyasi, iqtisadi və mədəni həyatında ən fəal iştirakçılardan birinə çevrilmişdir. Təsadüfi deyil ki, son illər dünya bazarında neftin qiymətlərinin aşağı düşməsinə və bəzi qlobal böhranların təsirini dəf edən Türkiyə dünyanın daha sürətlə inkişaf edən ölkələrindən birinə çevrilmişdir.

Türkiyə, 2017-ci ildə G20 ölkələri arasında ən sürətli böyüyən birinci iqtisadiyyata malik olmuşdur. Eyni zamanda 2018-ci ilin ilk rübündə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına üzv ölkələr arasında ən sürətli böyüyən ilk və G 20 qrupunda Hindistandan sonra ikinci iqtisadiyyata malik olmuşdur. Ölkədə adambaşına düşən milli gəlir 2017-ci ildə 10.597 dollar təşkil etmişdir.

Son illər ölkədə ümumi daxili məhsulun orta illik artımı yüksək olaraq qalır. Nüfuzlu ingilis mətbuatının yazdığına görə, bu ölkənin inkişaf sürəti, istənilən Avropa ölkəsindən daha əhəmiyyətli olacaqdır. Ümumiyyətlə, ümumi daxili məhsulun artım sürətinə görə Türkiyə dünyada Çin və Sinqapurdan sonra 3-cü yeri tutur. Milli iqtisadiyyatın bəzi bölmələri isə daha yüksək nəticələrə nail olmuşdur. Uzun zaman ərzində ölkə iqtisadiyyatının sahə strukturunun əsas xüsusiyyəti iri aqrar bölmənin mövcud olması idi. Ümumi daxili məhsulda sənayenin payı 24,7 faizə çatır. Kənd, meşə və balıqçılıq təsərrüfatı məhsulları isə 12 faiz təşkil edir.

Türkiyə iqtisadiyyatının güclü tərəfləri əlverişli demoqrafik vəziyyətə malik olmasıdır. Yəni əhali içərisində əmək qabiliyyətli adamların sayı daha çoxdur. Ölkədə təhsil sisteminin uğurlu inkişafı əmək bazarında vəziyyətin nizama salınmasına kömək edir. Belə bir cəhət diqqəti cəlb edir ki, son illər ərzində Türkiyədə demoqrafik vəziyyət Avropaya nisbətən daha əlverişli olaraq qalır. Bu amil, avropalı tərəfdaşlarını işçi qüvvəsi ilə təmin etməkdə bu ölkənin rolunu yaxın illərdə daha da artıracaqdır. Bu gün Avropa ölkələrinin müxtəlif infrastrukturlarında 4 milyondan çox türkiyəli çalışır.

Həmçinin bu əsrin əvvəllərindən etibarən Türkiyənin dünya ticarət sisteminə getdikcə daha böyük dərəcədə nüfuz etməsi, ölkənin daxili və xarici siyasətinə müsbət təsir göstərdi. Yaxın və Orta Şərq ölkələri və həmçinin Afrika ilə viza rejiminin fəal surətdə sadələşdirilməsi, adıçəkilən regionlarla ticarət əlaqələrinin həcminin sürətlə artmasına kömək edir.

Qonşu ölkələrin iqtisadiyyatına xeyli miqdarda yatırımlar qoyan türk müəssisələrinin sayı son illər durmadan artır. Belə bir cəhət Bolqarıstan, Gürcüstan, Rumıniya və Rusiyanın, həmçinin Yaxın və Orta Şərqin bəzi ölkələrinin iqtisadiyyatına olduqca müsbət təsir göstərir. Türk yatırımları adıçəkilən regionlarda yeni iş yerlərinin yaradılmasına və istehsalın həcminin artırılmasına kömək edir. Bu isə təbii olaraq bir sıra sosial problemlərin həll edilməsinə müsbət təsir göstərir. Bu cəhətdən Türkiyənin həmin ölkələrlə əməkdaşlığı təkcə ticarət sahəsi ilə məhdudlaşmır. Digər tərəfdən İran körfəzi zonası ölkələrindən gələn yatırımların da həcmi artır, ancaq onların həyata keçirilməsi prosesində qiymətli təcrübənin ötürülməsi baş vermir. Türkiyəyə gələn xarici investisiyaların müəyyən hissəsi Türkiyənin Avropa İttifaqı ilə Gömrük İttifaqının olması və onun bu ittifaqa daxil olması perspektivi ilə əlaqədardır.

Türkiyə ərazisinin nadir tarixi və mədəni abidələrlə zənginliyi, Aralıq dənizi çimərliklərinin son dərəcə gözəlliyi, əlverişli iqlim şəraiti — turizm biznesi üçün geniş imkanlar açır. Hər il ölkəyə təxminən 80 ölkədən 30-40 milyon turist gəlir. Təsadüfi deyil ki, son illər ölkə iqtisadiyyatı turizm sektorundan 30 milyard dollardan çox gəlir əldə etmişdir. PKK-nın terrorçuluq fəaliyyəti və 2011-ci ildən başlanmış "ərəb baharının" regiona mənfi təsiri, Orta Şərqdə cərəyan edən olaylar və münaqişələr bu prosesə mənfi təsir göstərsə də, Anadolunun füsunkar gözəlliyi xarici turistləri yenidən özünə cəlb edir. Bunun nəticəsində 2017-ci ildə ölkəyə gələn turistlərin sayı 32,4 milyon nəfər olmuşdur ki, bu da ölkəyə 26,2 milyard dollar gəlir gətirmişdir.

Türkiyənin bir çox ölkələrlə xarici ticarət münasibətləri genişlənməkdə davam edir. Onun başlıca əmtəə bazarları sırasında Almaniya, Rusiya, Çin, İtaliya, ABŞ, Böyük Britaniya, İran, Fransa, İraq, İspaniyanın özünəməxsus yeri vardır. Hətta 2020-ci ildə Türkiyə ilə Çin arasında ticarət dövriyyəsinin həcminin 100 milyard dolları ötüb keçməsi gözlənilir. 2017-ci il ərzində ümumi ixracat məhsullarının həcmi 157 milyard ABŞ dolları təşkil etmişdirsə, təkcə 2018-ci ilin yanvar-iyul aylarında bu göstərici 96,2 milyard dollar olmuşdur.

Son illər ərzində Türkiyənin əsas iqtisadi göstəriciləri sübut edir ki, bu ölkənin iqtisadiyyatında sabit artım və xarici investisiyaların çoxalması müşahidə olunur. Qeyd etmək lazımdır ki, hökumət ölkəyə xarici kapitalın cəlb edilməsi üzrə məqsədyönlü siyasət həyata keçirir. Türkiyə iqtisadiyyatına sərmayə qoyuluşlarının əsas hissəsi Avropa İttifaqı ölkələrinin payına düşür. 2017-ci ildə birbaşa xarici yatırımların həcmi 10,83 milyard dollar təşkil etmişdir. Bu göstərici yalnız 2018-ci ilin yanvar-aprel aylarında 3,1 milyard dollar olmuşdur. Eyni zamanda Türkiyə islam dünyası və Afrika ölkələri ilə də fəal əməkdaşlıq edir və onu inkişaf etdirir. Türkiyə ixracatının ənənəvi məhsulları toxuculuq sənayesi məhsulları, polimerlər, plastmaslar, elektrik maşınları və avadanlıqları, yerüstü nəqliyyat vasitələri, qara metallurgiya məhsulları və onlardan hazırlanmış məmulatlardır. Türk məhsullarının əsas istehlakçıları Avropa İttifaqı ölkələridir.



Türkiyə idxalatının əhəmiyyətli hissəsi xammal ehtiyatlarının payına düşür. O cümlədən yanacaq, investisiya malları üzrə bəzi məmulatlar da bu sırada yer alır. Enerji xammalı idxalı üzrə Türkiyənin başlıca ticarət tərəfdaşları Rusiya Federasiyası, İran, BƏƏ və Azərbaycandır. Türkiyənin ümumi idxalının 16 faizindən çoxu onların payına düşür. 2017-ci ildə idxalat məhsullarının həcmi 233,7 milyard dollar təşkil etmiş, 2018-ci ilin yanvar-iyul ayları ərzində 143 milyard dollar olmuşdur. Son illər ərzində Avropa komissiyasının dərc etdiyi məruzədə Türkiyədə həyata keçirilmiş islahatlar nəticəsində əldə olunmuş tərəqqi qeyd olunmaqla yanaşı, həm də bildirilmişdi ki, Türkiyə iqtisadiyyatı qlobal iqtisadi sarsıntılar şəraitində duruş gətirməyə qabil olan iqtisadiyyat kimi xarakterizə olunur.

Ümumi milli məhsul baxımından, satınalma gücünə görə, Türkiyə dünyanın ən böyük 13, Avropanın 5 iqtisadiyyatından biridir. Hazırda dünyada tez-tez hallanan 10 meqalayihənin 6-sı məhz Türkiyədə həyata keçirilməkdədir. Son illər həyata keçirilən çoxsaylı və genişmiqyaslı layihələrin sayəsində əhalinin işlə təmin olunması müsbət məcrada inkişaf edir. 2008-2016-cı illər arasında 7.3 milyon yeni iş yeri açılmış, təkcə 2017-ci ildə isə bu göstərici 1 milyon 108 min yeni iş yeri olmuşdur.

Ölkənin valyuta ehtiyatları da durmadan artır. Türkiyə Cümhuriyyəti Mərkəzi Bankının 2018-ci ilin sentyabrına olan məlumata görə ümumi ehtiyatları - 70,4 milyard dollar valyuta və 18,4 milyard dollar qızıl təşkil edir. Beləliklə, ümumi ehtiyatlar 88,8 milyard dollar təşkil edir. Türkiyə ikiqat vergi tutmanın qarşısını almaq və vergi ödəməkdən yayınmağa qarşı 82 ölkə ilə saziş bağlamışdır. Ankara yatırımların qarşılıqlı təşviqi və müdafiəsi haqqında 76 ölkə ilə sazişə malikdir.

Türkiyə ilə Azərbaycan arasında siyasi münasibətlərin qurulması XX əsrin 20-ci illərinə təsadüf edir. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti özünün dövlət müstəqilliyini bəyan edən zaman Türkiyə ilə hərtərəfli əlaqələr yaradılmışdı. Həmin ilin sentyabrında Nuru Paşanın komandanlığı altında Qafqaz islam ordusu Azərbaycanı erməni-daşnak və rus-bolşevik işğalından azad etdi.

Türkiyə 1991-ci il noyabrın 9-da Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk dövlət oldu. Az sonra, 1992-ci il yanvarın 14-də iki ölkə arasında diplomatik münasibətlərin yaradılması haqqında protokol imzalandı. Bununla da qarşılıqlı siyasi, iqtisadi və mədəni münasibətlərin inkişafına təkan verildi. İki ölkə arasında mövcud olan qardaşlıq münasibətlərini belə bir fakt bir daha sübut edir ki, hər iki ölkənin prezidentləri ilk rəsmi səfərlərini bir-birinin ölkəsinə etmişlər. Vaxtaşırı olaraq hər il həyata keçirilən yüksək səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclasları ikitərəfli, regional və qlobal sahədə bir çox məsələlərə dair fikir mübadiləsi aparılmasına imkan yaratmışdır. Bu Şura həmçinin iki ölkə arasında hüquqi-müqavilə bazasını möhkəmləndirən bir çox sənədlərin imzalanmasına və əlaqələrin daha dərinləşməsinə zəmin yaratmışdır. Azərbaycan və Türkiyə arasında bu günə qədər iqtisadi sahədə 30-dan çox müqavilə imzalanmışdır. İki ölkə arasında ümumi ticarət dövriyyəsinin həcmi 2017-ci ildə 2.697 milyon dollar olmuşdur. Bu göstəricini 2023-cü ildə 15 milyard dollara çatdırmaq nəzərdə tutulmuşdur.

Qarşılıqlı iqtisadi münasibətlərdə Bakı-Tbilisi-Ceyhan neft boru kəməri və Bakı-Tbilisi-Ərzurum təbii qaz boru kəməri Azərbaycan-Türkiyə əməkdaşlığının ən böyük uğurlarından biridir. Bu layihələrin məntiqi davamı olan və Cənub Qaz Dəhlizinin əsasını təşkil edən, XXI əsrin layihəsi olaraq dəyərləndirilən Trans-Anadolu təbii qaz boru kəməri (TANAP) nəzərdə tutulan plana uyğun olaraq başa çatdırılmışdır. TANAP-ın açılışı bu il iyunun 12-də baş verdi. STAR neftayırma zavodunun açılışı isə bu il oktyabrın 19-da baş verdi. Əlamətdar cəhəti ondan ibarətdir ki, təntənəli açılış mərasimində iki qardaş dövlətin prezidentləri də iştirak etdilər. 2020-ci ildə bu kəmərlə nəql olunacaq qazın həcmi ildə 16 milyard kubmetr, 2023-cü ildə 23 milyard kubmetr, 2026-cı ildə isə 31 milyard kubmetrə çatdırılacaq.

Yaxın gələcəkdə Trans-Adriatik təbii qaz boru kəmərinin (TAP) başa çatdırılması ilə Xəzər təbii qazının Anadolu üzərindən Avropaya daşınması bir gerçəkliyə çevriləcəkdir. Bakı-Tbilisi-Qars dəmiryolu xətti də üç qonşu ölkə Türkiyə-Azərbaycan-Gürcüstan arasındakı regional əməkdaşlığa bariz nümunədir. Bu layihə nəqliyyat sahəsinə töhfə verməklə yanaşı, ticarət fəaliyyətinin və humanitar əlaqələrin də sürətlə artması ilə nəticələnəcək.

Bu gün Azərbaycan Türkiyə iqtisadiyyatına böyük yatırımlar edir. ARDNŞ-in Türkiyədəki yatırımları aşağıdakı sahələri əhatə edir: Bakı-Tiflis-Ceyhan boru xətti, Bakı-Tiflis-Ərzurum təbii qaz boru xətti, PETKİM, Petlim, STAR neftayırma zavodu və TANAP. 2020-ci ilədək Azərbaycanın Türkiyə iqtisadiyyatına yatıracaq sərmayələrin həcmi 20 milyard dollara çatacaq ki, bunun da 15 milyard dolları Azərbaycan Dövlət Neft Şirkətinin payına düşəcəkdir. Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu kimi nəhəng layihələr ikitərəfli və çoxtərəfli münasibətlərə güclü təkan verəcəkdir. Türkiyənin Azərbaycan iqtisadiyyatına qoyduğu birbaşa yatırımları 2002-2017-ci illərdə 17 milyard dollar təşkil etmişdir. Bu göstərici 2017-ci ildə 265 milyon dollar, 2018-ci ilin yanvar-iyul aylarında isə 40 milyon dollar təşkil etmişdir. Əsasən telekommunikasiya, bank, sığorta, nəqliyyat, ərzaq məhsulları, toxuculuq məmulatları, mebel, inşaat avadanlıqları kimi sahələrdə fəaliyyət göstərən 2.665 türk şirkəti Azərbaycanda 25 mindən artıq insanın məşğulluğunu təmin edir. Türk podratçı şirkətləri Azərbaycanda 2003-cü ildən bu günədək 11 milyard dollar dəyərində 347 layihəni öz öhdəsinə götürmüşdür. Təsadüfi deyil ki, 2003-2017-ci illər arasında Türkiyənin tikinti şirkətləri tərəfindən Azərbaycanda həyata keçirilən işlərin ümumi dəyəri 12,2 milyard dollar olmuşdur.

Azərbaycanın Türkiyə iqtisadiyyatına qoyduğu birbaşa yatırımların həcmi 2002-2017-ci illərdə 5,9 milyard dollar təşkil etmişdir. ARDNŞ-in STAR neftayırma zavodu tam fəaliyyətə başlayandan sonra Azərbaycanın Türkiyədəki yatırımlarının həcmi 20 milyard dollara çatacağı nəzərdə tutulmuşdur. Göründüyü kimi, Azərbaycan ilə Türkiyə region üçün çox böyük əhəmiyyətə malik layihələr reallaşdırır.

Azərbaycan qardaş Türkiyə ilə hərbi və müdafiə sənayesi sahələrində də sıx əməkdaşlıq edir. Hərbi sahədə 80-dən çox saziş imzalanmışdır. Azərbaycanın 7 mindən artıq gənc zabiti Türkiyə hərbi məktəblərinin məzunu olmuşdur. İki ölkə silahlı qüvvələrinin birgə təlimləri də müntəzəm hal almışdır. Bu hərbi əməkdaşlıq heç bir üçüncü dövlətə qarşı yönəlməyib və sadəcə olaraq müdafiə xarakteri daşıyır.

Mədəniyyət və təhsil sahəsində əlaqələr güclənməkdədir. Hazırda Azərbaycanın universitetlərində və digər təhsil ocaqlarında 1.900 türkiyəli tələbə təhsil alır. Ölkə ərazisində isə 15 minə yaxın türkiyəli mütəxəssislər çalışmaqdadır. Müvafiq olaraq Türkiyədə 11 min azərbaycanlı tələbə və çox sayda Azərbaycan vətəndaşı yaşayır, işləyir.

Türkiyə Cümhuriyyətinin qurulmasının ildönümləri həmişə yeni uğurlarla, ikitərəfli münasibətlərdə yaddaqalan səhifələrlə xarakterizə olunur. İnanırıq ki, Türkiyə ilə Azərbaycan arasında uzun illərin sınağından çıxmış dostluq və qardaşlıq münasibətləri hər iki dövləti strateji hədəflərinə yetişdirəcəkdir. Bu münasibətlərin böyük potensialı var. Əminliklə deyə bilərik ki, iqtisadiyyat, siyasət, terrorizmə qarşı birgə mübarizə, regionda təhlükəsizlik məsələsi sahələrində sıx əməkdaşlıq edən iki qardaş ölkə birlikdə istənilən problemi həll etməyə və qarşıya qoyulmuş möhtəşəm hədəflərə yetişməyə qadirdir.

**Atamoğlan MƏMMƏDLİ.**

# UAFA ilə gələcək fəaliyyət istiqamətləri müzakirə olunub

**Ölkəmizdə sağlamlıq imkanları məhdud uşaqlar üçün reabilitasiya yönümlü sosial xidmətlər sisteminin əsas məqsədi belə uşaqların dövlət uşaq müəssisələrinə düşməsinin qarşısının alınması, eyni zamanda, həmin müəssisələrdəki uşaqların səmərəli reabilitasiya xidmətləri, de-institusionalizasiya tədbirləri vasitəsilə yenidən doğma ailə mühitinə qaytarılmasıdır. Bunu əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Azərbaycana Birgə Yardım Təşkilatının (UAFA) rəhbəri Qven Börçel ilə nazirlikdə keçirilən görüşdə bildirib.**



Nazirliyin ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, S.Babayev vurğulayıb ki, dövlətin sosial siyasətində sağlamlıq imkanları məhdud uşaqların sağlamlıqlarının bərpası, onların reabilitasiyası və cəmiyyətə inteqrasiyası xüsusi yer tutur. Hazırda nazirliyin tabeliyindəki 1 və 2 saylı sosial xidmət müəssisələrində 330-dan çox sağlamlıq imkanları məhdud uşaq daimi dövlət təminatındadır. Heydər Əliyev Fondunun "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı çərçivəsində hər iki müəssisədə nümunəvi yaşayış və reabilitasiya şəraiti yaradılıb. DOST (Dayanıqlı və Operativ Sosial Təminat) mərkəzlərinin yaradılması yönündə aparılan işləri də qeyd edib, bu mərkəzlərdə nazirlik üzrə 124 xidmətlə yanaşı, günərzi sosial xidmətlərin göstərilməsinin, sosial xidmətlər üzrə təlimlərin təşkilinin də nəzərdə tutulduğunu diqqətə çatdırıb. Ölkəmizdə sağlamlıq imkanları məhdud uşaqlar üçün reabilitasiya yönümlü sosial xidmətlərin təşkili və bu sahədə imkanların artırılması, institusional və praktik iş mexanizmlərinin təkmilləşdirilməsi, İcma Əsaslı Reabilitasiya və de-institusionalizasiya prosesinin güclənməsi işlərində Azərbaycana Birgə Yardım Təşkilatı (UAFA) ilə əməkdaşlıq müstəvisində icra olunan layihələr mühüm önəm kəsb edir.

Xanım Q.Börçel Azərbaycanda sosial xidmətlər sisteminin inkişafı, uşaqlara yönələn reabilitasiya məqsədli sosial xidmətlərin genişləndirilməsi üçün aparılan işlərdən və bu sahədə nazirliyin UAFA ilə fəal əməkdaşlığa önəm verməsindən məmnunluğunu ifadə edib. O, birgə layihələrin davam etdirilməsində, habelə sosial xidmətlər üçün strategiya planının hazırlanmasında və digər müvafiq istiqamətlərdə əməkdaşlıqda maraqlı olduqlarını vurğulayıb.

**M.KAMAL,**
**"Respublika".**

# Vətəndaşların müraciətinə həssaslıqla yanaşılır





**Cəbhə xəttində yaşayan insanlara dövlət tərəfindən göstərilən diqqət və qayğı davamlı xarakter alıb, rayonda mütəşəkkillik, təşəbbüskarlıq, sabitlik hökm sürür. Qeyd etmək yerinə düşər ki, son vaxtlar Ağdam rayonunun həyatında böyük bir canlanma, qüvvələrin hərəkətə gətirilməsi diqqəti daha çox cəlb edir. Yeni bir inam və ruh yaranıb, insanlar sabaha daha nikbin nəzərlərlə baxırlar.**

Mübaliğəsiz demək olar ki, rayonda həyata keçirilən tədbirlər, sosial-iqtisadi inkişafa diqqətin artırılması, uzun illərdən bəri əhalini narahat edən Dördyol-Quzanlı avtomobil yolunun yenidən qurulması, xalqa sarı atılan addımlar, səmimi münasibətin yaradılması insanların fəallığının artmasına, onlarda dərin bir inamın yaranmasına səbəb olub. Yaralı və barıt qoxulu torpağın bu günü və uğurları ağdamlıları sözün əsl mənasında, yeni bir mücadiləyə sövq edib.

Cəmiyyətdə gedən prosesləri özündə əks etdirən, cəmiyyətin döyünən nəbzi sayılan vətəndaş müraciətlərini təhlil etmək, onların sayını, mövzularını, bəhs etdikləri problemləri və bunların həlli üçün görülən tədbirləri araşdırmaq, öyrənmək dövlət idarəetməsində mühüm vasitələrdən biridir.

Azərbaycan Prezidenti ölkənin demokratik təsisatlarının daha da möhkəmləndirilməsinə, vətəndaşların hüquq və azadlıqlarının daha yaxşı təmin edilməsinə, insanların arzu və istəklərini, eyni zamanda, cəmiyyətin problemlərini özündə əks etdirən vətəndaş müraciətlərinə diqqətin artırılmasına həmişə böyük əhəmiyyət verir.

Azərbaycan Respublikası vətəndaşlarının Konstitusiyada təsbit edilmiş hüquq və azadlıqlarının təmin olunmasını daim diqqət mərkəzində saxlayan dövlətimizin başçısı İlham Əliyev vətəndaşların müraciətlərinə baxılmasına xüsusi önəm verir, onların qaldırdıqları məsələlərin obyektiv həllini vəzifəli şəxslərdən qətiyyətlə tələb edir.

Dövlətimizin başçısı hər bir vətəndaşın Prezidenti olduğunu dəfələrlə qeyd edərək insanlara qarşı diqqətli olmağı, xalqa xidmət göstərməyi və bununla da, Azərbaycan dövlətini daha da gücləndirməyi bütün dövlət qulluqçularının qarşısında bir vəzifə kimi qoyub.

Bütün bu tövsiyə və tapşırıqları öz fəaliyyətində rəhbər tutan rayon icra hakimiyyəti aparatında bu həssas məsələyə yeni yanaşma və obyektivlik ön plana çəkilib. Fəaliyyətə başladığı ilk gündən rayon icra hakimiyyətinin başçısı Vaqif Həsənov mütəmadi olaraq əhali ilə görüşlər keçirir, onları narahat edən problemlərin həll edilməsinə var qüvvə ilə çalışır.

İcra başçısı bu günlərdə əhalinin problemlərinin yerində öyrənilməsi və həll edilməsi məqsədilə İkinci Alıbəyli köçkün qəsəbə sakinləri ilə görüşüb və həmyerlilərini dinləyib, qarşıya çıxan problemləri yaradan səbəblər dərindən təhlil edilib, arzu və istəklərinə diqqətlə yanaşıb.

Hüquq-mühafizə, səhiyyə, təhsil, mədəniyyət, digər xidmət sahələri rəhbərlərinin də iştirak etdiyi görüşdə rayonun sosial-iqtisadi inkişafı, əhalini narahat edən problemlərin həlli istiqamətində həyata keçirilən tədbirlərdən, infrastrukturun yaxşılaşdırılması istiqamətində görülən işlərdən danışılıb. Çıxış edən icra başçısı ölkə Prezidenti cənab İlham Əliyevin verdiyi tapşırıqların həyata keçirilməsi, əhalinin qayğı və problemlərinin yerindəcə öyrənilməsi və operativ həlli üçün keçirilən bu cür görüşlərin önəmli olduğunu bildirib.

Qəsəbə sakinlərindən Abbasova Nəcibə, Abbasov Rəbiş, Mustafayev Quluş, Əbdürrəhmanov Eldəniz, Rüstəmova Gülşən və başqaları əhalinin həyat şəraiti, rayonda gedən sosial-iqtisadi inkişafdan, kəndlərin daim diqqət mərkəzində saxlanılmasından razılıqlarını ifadə edərək həm də bəzi problemlərinin olması barədə də məlumat veriblər. Sakinlər çıxışlarında qəsəbədə içməli su üçün artezian quyusunun qazılmasına, yüksəkgərginlikli elektrik xəttinin yerinin dəyişdirilməsi, sosial məsələlər və digər problemlərinin həllinə ehtiyac olduğunu diqqətə çatdırıblar.

Rayon icra hakimiyyətinin başçısı Vaqif Həsənov vətəndaşların qaldırdıqları məsələlərin həlli istiqamətində əlaqədar qurum və təşkilatların rəhbərlərinə yerindəcə tapşırıqlar verib və onların həll edilməsini nəzarətə götürüb.

Bundan başqa, Sumqayıt şəhərində məskunlaşan Ağdamdan olan məcburi köçkünlər ilə səyyar qəbul-görüş keçirilib.

Məcburi köçkünlərdən Vasif Eyvazov, Tahir Əliyev, Rahilə Əsədova, Vüqar Əliyev, Firuzə Cəbrayılova, şəhid ailəsi Raxşəndə Kərimzadə və başqaları çıxış edərək bəzi problemlərin olması barədə məlumat veriblər. Sakinlər əsasən mənzil şəraitlərinin ağır olduğunu və evlə təmin olunmalarına, sosial məsələlər və digər problemlərinin öz həllini tapmasına ehtiyac olduğunu diqqətə çatdırıblar.

Rayon icra hakimiyyətinin başçısı Vaqif Həsənov bildirib ki, Sumqayıt şəhəri ərazisində ictimai binalarda və xüsusilə ağır şəraitdə yaşayan sakinlər üçün tikilən binalardan evlə təmin olunmaları üçün lazımi işlər aparılır və onların bu probleminin həllinə nail olunacaq.

Onu da qeyd edək ki, rayon icra hakimiyyətində icra başçısının qəbulu hər gün davam etdirilir, vətəndaşlardan daxil olan ərizə və şikayətlərə həssaslıqla yanaşılır və hər bir məmurdan bu münasibət tələb olunur.

**Salman ALIOĞLU,**
**"Respublika".**

# İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin özəlləşdirmə qurumları rəhbərlərinin 6-cı iclası

25-26 oktyabr tarixlərində Bakı şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) üzv dövlətlərin özəlləşdirmə və özəl sektorun inkişafı üzrə yüksək səviyyəli İşçi Qrupunun 5-ci iclası, özəlləşdirmə qurumları rəhbərlərinin isə 6-cı iclası keçirildi. Tədbirin əsas məqsədi üzv ölkələr arasında özəlləşmə sahəsində əməkdaşlığın inkişaf etdirilməsi, qarşılıqlı təcrübə mübadiləsinin və müzakirələrin aparılması, uğurlu layihələrin birgə icrası, o cümlədən iqtisadiyyatın bu sahəsinə investisiyaların cəlb edilməsidir. Eyni zamanda özəlləşmənin iqtisadiyyatdakı xüsusi çəkisinin artması ilə bağlı ideya bankının formalaşması, həm sərmayəçi, həm də dövlət üçün gəlirli özəlləşmə modelinin hazırlanması, büdcə daxilolmalarında özəlləşmənin payının artırılması əsas hədəflərdəndir.




Tədbirdə İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi Hadi Süleymanpur, Türkiyənin, İranın, Əfqanıstanın, Qırğızıstanın özəlləşmə qurumlarının rəhbərləri, həmçinin təşkilata üzv olan 10 ölkənin yüksək səviyyəli nümayəndələri və həmin dövlətlərin Azərbaycanda olan fövqəladə və səlahiyyətli səfirləri iştirak ediblər.

Tədbir çərçivəsində Azərbaycanın müasir dövrdə uğurlarını və inkişaf yolunu əks etdirən film nümayiş olunub.

Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənov özəlləşdirmə qurumları rəhbərlərinin 6-cı iclasındakı çıxışında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə müasir çağırışların tələblərinə uyğun həyata keçirilən ardıcıl islahatlar haqqında məlumat verərək bildirib ki, bu islahatlar sayəsində ölkəmizin iqtisadiyyatı öz dayanıqlılığını daha da möhkəmləndirməkdədir. Son bir neçə ildə ölkəmizdə həyata keçirilən layihələr nəticəsində kənd təsərrüfatı, inşaat, maliyyə, nəqliyyat, rabitə, ticarət, xidmət kimi sahələr investorlar üçün cəlbediciliyini artırmaqdadır. Bu islahatlar çərçivəsində əmlak idarəçiliyi sektorunun da beynəlxalq standartlara uyğun müasirləşməsi tədbirləri görülür. Torpaqların Elektron Kadastr Uçotu İnformasiya Sistemi, torpaq inzibatçılığı və istifadəsi üzərində daha səmərəli nəzarətin təmin olunması məqsədilə Peyk Nəzarət Sistemi kimi iri layihələr icra olunur. Daşınmaz əmlak üzərində hüquqların qeydiyyatı üzrə çıxarışların 1 iş günü müddətində verilməsi, habelə bu çıxarışların elektron formata keçirilməsi mümkün olub.

Komitə sədri Azərbaycanda dövlət əmlakının idarə edilməsi və özəlləşdirilməsi sahəsində həyata keçirilən islahatlardan geniş şəkildə söz açıb. Bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bu sahənin modernləşdirilməsi, müasir idarəetmə standartlarının tətbiqi, o cümlədən dövlət-özəl tərəfdaşlığının qurulması istiqamətində uğurlu nəticələr əldə edilir.

İclasda çıxış edən İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi Hadi Süleymanpur ölkəmizdə həyata keçirilən iqtisadi islahatları yüksək qiymətləndirərək, bildirib ki, bu gün Bakıda keçirilən bu tədbir ölkələr arasında özəlləşmə sahəsində təcrübə mübadiləsinin aparılması, üzv dövlətlərdə tətbiq olunan innovativ layihələrin öyrənilməsi, bu sahədə əlaqələrin qurulması baxımından uğurlu platformadır.

Daha sonra Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənov İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin özəlləşdirmə qurumları rəhbərlərinin 6-cı iclasının sədri seçilib.

Tədbir çərçivəsində İƏT-ə üzv olan ölkələrin aidiyyəti qurum rəhbərlərinin çıxış və təqdimatları olub. Türkiyənin Özəlləşmə Təşkilatının prezidenti Ahmet Aksu Türkiyədə dövlət əmlakının özəlləşdirilməsi haqqında iclas iştirakçılarına geniş məlumat vermiş, həmçinin iclasın əhəmiyyətinə də toxunmuş və bildirmişdir ki, tədbir təşkilata üzv olan dövlətlərin özəlləşmə ilə bağlı əlaqələrini daha da genişləndirəcəkdir.

İranın Özəlləşmə Təşkilatının prezidenti Mir Ali Aşraf Abdollah Pourihossein isə üzv dövlətlərdə özəlləşmə ilə bağlı qanunvericilik və tənzimləmə siyasətinin optimallaşdırılmasını, çoxtərəfli müstəvidə əməkdaşlıq əlaqələrinin daha da intensivləşdirilməsini vacib sayıb.

Daha sonra İƏT Katibliyinin fəaliyyəti ilə bağlı hesabat dinlənilib.

Sonda İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin özəlləşdirmə qurumları rəhbərlərinin 6-cı iclasının nəticəsi olaraq "Özəlləşdirmə üzrə Bakı Bəyanatı" qəbul olunub.

**N.CAVADOV,**
**"Respublika".**

# Mingəçevir: Dayanıqlı inkişaf təmin olunur

**2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunları Mingəçevir Şəhər İcra Hakimiyyətində keçirilmiş şura iclasında müzakirə edilmişdir. Hesabat məruzəsi ilə çıxış edən şəhər icra hakimiyyəti başçısının I müavini İlham İsmayılov qeyd etmişdir ki, ölkə iqtisadiyyatında əldə olunmuş yüksək nailiyyətlər şəhərimizin də inkişafına öz müsbət təsirini göstərməkdə davam edir. Ötən 9 ayda şəhərimizdə sənaye məhsulu istehsalı 218,8 milyon manat təşkil etmiş, tikinti sektorunda əsas kapitala yönələn investisiya 35,9 milyon manat olmuş, aparılan tikinti-quraşdırma işlərinə 28,5 milyon manat vəsait xərclənmişdir. İlin əvvəlindən nəqliyyat sahəsində 900 min manatlıq, rabitə müəssisələrində 900 min manatlıq xidmət göstərilmiş, əhaliyə 258,5 milyon manatlıq istehlak malları satılmışdır.**



Dövlət Proqramında bilavasitə şəhərimizə aid bəndlər uğurla icra olunur. Yaşayış məntəqələrinin elektrik enerjisi, qaz, su və kanalizasiya sistemlərinin bərpası və yenidən qurulması istiqamətində aidiyyəti qurumlar tərəfindən işlər davam etməkdədir.

Bu ilin doqquz ayında istehsal olunmuş sənaye məhsulunun 94,4 faizi elektrik enerjisi istehsal edən "Azərbaycan İstilik Elektrik Stansiyası" və "Su Elektrik Stansiyası Silsiləsi" MMC-lərin payına düşür. Ötən müddətdə bu stansiyalarda ümumilikdə 5,8 milyard kilovat-saat elektrik enerjisi istehsal olunmuşdur.

İlin əvvəlindən "Mingəçevir Tekstil" MMC, "Azneftemaş", "Mingəçevir İzolit", "Azərkabel", "Akkord" Mingəçevir Maşınqayırma zavodu ASC-lər alınan sifarişlərə uyğun öz işlərini təşkil etmişlər.

2018-ci ilin 9 ayında şəhərin kommunal xidmət təşkilatları şəhərdə aparılan abadlıq və quruculuq işlərində yaxından iştirak etməklə yanaşı öhdələrinə düşən vəzifələri uğurla icra etmişlər.

Su kanal idarəsi tərəfindən 9 ay ərzində su şəbəkəsində baş vermiş 2550 sayda qəza aradan qaldırılaraq müxtəlif diametrli 217 p.m. su xətti və 2 ədəd siyirtmə dəyişdirilmiş, 28 ədəd siyirtmə cari təmir olunmuşdur.

Yaşıllaşdırma və Sanitar Təmizlik İdarəsi tərəfindən 9 ay ərzində 3020 ədəd müxtəlif növ ağac tingləri 630 ədəd lüqustr kolu, 1130 ədəd gül, 5600 ədəd mövsümi çiçək əkilmişdir.

Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyi tərəfindən şəhərin sel sularından mühafizə kanalının 5750 m-lik hissəsi lil və palçıqdan, köməkçi sel-su kanalının 530 m-lik hissəsi isə əl ilə təmizlənmiş, H.Əliyev prospektində 206 metr uzunluğunda metal borulardan yağış sularını ötürən xətt çəkilmiş, 17 ədəd yeni baxış quyusu və 23 dəst quyu qapaqları quraşdırılmışdır.

Şəhərin müxtəlif küçələrində 243 m uzunluqda çökmüş yol səki daşları bərpa edilmiş, 86 m uzunluqda yeni səki daşları quraşdırılmışdır. Mingəçevir kəndi yaşayış massivi ərazisində, Şəfa, Şəfəq, Günəşli bağçılıq təsərrüfatları ərazisində daxili yollara 360 kubmetr qum-çınqıl qarışığı daşınmış və yayılmışdır.

"İşıqlanma" idarəsi tərəfindən 568 km uzunluqda işıqlanma sisteminə və 8068 ədəd işıq nöqtəsinə xidmət edilməklə yanaşı 3042 ədəd yeni lampa salınmış, 11580 metr kabel dəyişdirilmiş və sistemin işini təmin edən, sıradan çıxmış digər elektrik malları yenisi ilə əvəz edilmişdir.

2009-2013 və 2014-2018-ci illərin Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramlarında şəhərin istilik təchizatının yenidən qurulması bəndi üzrə şəhərdə 19 qazanxanadan yalnız 2 məhəllənin - 112 və 66-cı məhəllələrin qazanxanaları bərpa olunmuşdur.

Mənzil Təsərrüfatı və Abadlaşdırma İdarəsi tərəfindən 2018-ci ilin 9 ayı ərzində 82 binanın 458 kvadratmetr şifer, 89 yumşaq dam örtüklü binanın 2912 kvadratmetr sahəsi cari təmir edilmişdir. 273 binanın tüstü və havaçəkən boruları təmizlənmiş, 129 binanın yağış ötürücü borusu cari təmir edilmişdir.

Hazırda Mingəçevir şəhərində ermənilərin təcavüzü nəticəsində öz torpaqlarından didərgin düşmüş 5392 məcburi köçkün ailəsi, 20243 nəfər məcburi köçkün məskunlaşmışdır. Sosial-məişət problemlərinin həlli istiqamətində şəhər rəhbərliyi məcburi köçkünlərin məskunlaşdıqları tikililərin dam örtüklərinin təmirində, su ilə təchizatında, kanalizasiya xətlərinin təmirində yaranmış problemlərin həllində imkan daxilində köməkliklər göstərir.

2018-ci ilin 9 ayında təhsil, səhiyyə, mədəniyyət, gənclər və idman sahələrinin inkişafına, onların maddi-texniki bazasının genişləndirilməsinə lazımi diqqət yetirilmiş, müvafiq tədbirlər görülmüşdür.

Hesabat dövründə Mingəçevir Şəhər Mərkəzi Xəstəxanasının maddi-texniki bazası gücləndirilmişdir. İcbari tibbi sığortanın tətbiq olunması ilə əlaqədar həkimlərin əməkhaqqı 3 dəfə artırılmışdır.

Gənclər arasında idmanın geniş yayılması, yarışların keçirilməsi sahəsində bir sıra işlər görülmüş, nailiyyətlər əldə olunmuşdur. Hesabat dövründə Gənclər və İdman İdarəsinin nəzdindəki idman məktəblərinin yetirmələri bir sıra uğurlar qazanmışlar. Ümumilikdə müxtəlif idman növləri üzrə ötən müddətdə 18 qızıl, 9 gümüş, 8 bürünc medal qazanılmışdır. Yunan-Roma, cüdo, futbol üzrə respublika miqyaslı yarışlar təşkil edilib keçirilmişdir.

2018-ci ilin 9 ayı ərzində şəhər icra hakimiyyəti başçısı tərəfindən 29 rəsmi qəbul, 31 səyyari görüş keçirilmişdir. Səyyari görüşlərdə olunan müraciətlərin 150-si icra edilmiş, digər qaldırılan 153 məsələ ilə bağlı müvafiq izahatlar verilmişdir.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur və müvafiq qərar qəbul edilmişdir.

**İlham PƏNAHOV,**
**"Respublika".**

# Abadlıq işləri və sosial infrastruktur yenilənir

**İmişli rayonunda 2018-ci ilin 9 ayının yekunu ilə bağlı hesabat yığıncağı keçirildi. Yığıncaqda rayon icra hakimiyyətinin başçısı Viyam Hacıyev bildirdi ki 09 oktyabr 2018-ci il tarixdə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin ilin doqquz ayının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilmişdir. Doqquz ayın nəticələrindən danışarkən cənab Prezident qeyd etmişdir ki, Azərbaycan bu müddət ərzində uğurla inkişaf etmişdir, qarşımızda duran bütün vəzifələr artıqlaması ilə yerinə yetirilmiş, ölkəmiz güclənmiş və hərtərəfli inkişaf etmişdir.**



2018-ci ilin doqquz ayında İmişli rayonunun sosial-iqtisadi inkişafında da yaxşı nəticələr əldə olunmuşdur. Belə ki, iqtisdiyyatın əsas sahələri üzrə 337.400 min manatlıq məhsul istehsal edilmiş və ya xidmət göstərilmişdir ki, onun 156.370.300 manatı və ya 46,4 faizi sənaye, 89.355.900 manatı və ya 26,5 faizi kənd təsərrüfatı, 23.129.800 manatı və ya 6,8 faizi tikinti, 61.009.600 manatı və 18,1 faizi ticarət və iaşə, 7.095.500 manatı və ya 2.1 faizi nəqliyyat, 438.900 manatı və ya 0,1 faizi rabitə müəssisələrinin payına düşür. Göründüyü kimi, rayon iqtisadiyyatında əsas yeri sənaye və kənd təsərrüfatı məhsullarının istehsalı tutur.

Rayon rəhbəri qeyd etdi ki. rayonumuz əsasən aqrar rayonu olmasına baxmayaraq bu gün sənaye məhsullarının çəkisi ümumi məhsul buraxılışında üstünlük təşkil edir.

2018-ci ilin doqquz ayının məlumatlarına əsasən 156.370.300 manatlıq məhsul istehsal edilmiş, istehsal olunan sənaye məhsullarının 93,5 faizi qeyri-dövlət sektorunun payına düşür.

İmişli rayonunun iqtisadiyyatında kənd təsərrüfatı məhsullarının istehsalı da xüsusi yer tutur. Ölkədə aparılan aqrar islahatların uğurla həyata keçirilməsi nəticəsində rayonumuzda kənd təsərrüfatı inkişaf etmişdir. Son illərdə olduğu kimi pambıq, taxıl, çuğundur əsas bitkiçilik sahəsi kimi qalmaqdadır.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev ölkəmizdə pambıqçılığın inkişafı ilə bağlı müvafiq tapşırıq vermişdir. Məlumat üçün bildirirəm ki, bu il İmişli rayonunda 13645 ha torpaq sahəsində pambıq əkilmişdir. Hazırda pambıq sahələrində pambıq yığımı işləri aparılır.

Baramaçılığın inkişafı rayonumuzda uğurla inkişaf etdirilir. Carı ildə rayon ərazisində 134 kümçüyə ipəkqurdu paylanaraq, 10087 kq yaş barama istehsal edilmişdir ki, bu da ötən illə müqayisədə 25.6 faiz cox olmuşdur.

2018-ci ilin 9 ayında heyvandarlıq və quşçuluq sahələrinin inkişafı təmin edilmiş, rayon üzrə mal-qaranın sayı 93.694 başa, qoyunların sayı 251.024 başa, quşların sayı isə 997.090 baş olmuşdur. Ət istehsalı (diri çəkidə) 4769 ton, süd istehsalı 37173.2 ton, yumurta istehsalı isə 34.818 min ədəd olmuşdur. 2018-ci ilin müvafiq dövrü ərzində 49747.3 ton buğda, 18624 ton arpa, 2614.2 ton kartof, 4140.6 ton bostan, 3305.9 ton şəkər çuğunduru, 2882.1 ton tərəvəz tədarük edilmişdir. İlin bütün fəsillərində əhalini təzə tərəvəz məhsulları ilə təmin etmək üçün müasir istixana təsərrüfatları yaradılmışdır.

Rayonda aparılan abadlıq və quruculuq işlərindən danışan icra başçısı bildirdi ki, 2018-ci ilin doqquz ayında İmişli şəhəri Heydər Əliyev prospektində və parkında, 20 Yanvar, N.Savalanov, X.Bəylərov, S.Fətəliyev, A.Şadlınski küçələrində müvafiq abadlıq, Heydər Əliyev prospektində 150,152 saylı binalarda, M.Əsədov 19 və H.Aslanov 14,16 saylı binalarda təmir işləri aparılmışdır. İmişli şəhəri P.Həsənov, 20 yanvar, N.Savalanov, X.Bəylərov, Q.Qarayev, L.Vəliyev və Koroğlu küçələrinə asfalt örtüyü qoyulmuşdur.

Heydər Əliyev prospektində səkilərə yeni səki daşları və tamet plitə qoyularaq abadlıq işləri aparılır, 14 km-lik İmişli-Yalavac-Rəsullu-Göbəktala-Şahverdili-Bəhrəmtəpə-Qaragüvəndikli yerli əhəmiyyətli avtomobil yolunda təmir işləri başa çatmışdır.

Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinin mənzil şəraitinin yaxşılaşdırılması məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən İmişli şəhərində 6 mərtəbəli 54 mənzilli ictimai yaşayış binasında tikinti işləri tamamlanmaq üzrədir.

Əhalinin elektrik enerjisi, qaz və içməli su ilə təminatından danışan rayon rəhbəri qeyd etdi ki, 2018-ci ilin 9 ayı ərzində istehlakçıların fasiləsiz və etibarlı elektrik enerjisi təchizatının yaxşılaşdırılması məqsədi ilə 10 və 0,4 kv-luq xətlərdə yenidənqurma işləri aparılmış, mövcud istismar müddətini başa vurmuş dayaq və naqillər yenisi ilə əvəz edilmiş, yeni güc mərkəzləri yaradılmışdır. Bu müddətdə 250 ədəd müxtəlif güclü 10/0,4 kv-luq transformator cari, 150 ədəd transformator yarımstansiyası əsaslı təmir edilərək əhalinin istifadəsinə verilmişdir.

Regional Qaz İstismarı İdarəsinin İmişli Xidmət sahəsi tərəfindən rayonda 2018-ci ilin 9 ayında 196 yeni fərdi ev, 11 qeyri-əhali sektorunu təmsil edən obyekt qazlaşdırılaraq istismara təhvil verilmişdir. Beləliklə 2018-ci ilin doqquz ayında təbii qaz istehlakçıların ümumi sayı: əhali sektoru üzrə 24936 nəfər təşkil etmişdir ki, onlardan 4746 nəfərinə yeni Smart tipli məişət qaz sayğacı quraşdırılmışdır.

Rayonda 9 xəstəxana, 12 həkim məntəqəsi, 29 tibb məntəqəsi və 1 poliklinika, 2 gigiyena və epidemiologiya mərkəzi, 1 taun əleyhinə şöbə fəaliyyət göstərir ki, həmin müəssisələrdə də 161 nəfər həkim və 612 nəfər orta ixtisaslı tibb işçisi çalışır. Hazırda rayonun səhiyyə müəssisələrində ayrı-ayrı ixtisaslar üzrə 77 nəfər həkimə ciddi tələbat vardır.

İmişli Rayon Mədəniyyət Mərkəzinin və Tarix Diyarşunaslıq Muzeyinin təmiri nəzərdə tutulmuşdur. Dövr ərzində İmişli Rayon Mədəniyyət Mərkəzinin və Mərkəzi kitabxananın inzibati binalarında müvafiq təmir işləri aparılmışdır.

Qeyd olundu ki 2018-ci ilin 9 ayı ərzində rayon üzrə 441 abonentə telefon xətti çəkilmişdir.

Məruzə və çıxışlarda vurğulandı ki, biz bundan sonra da ümummilli liderimiz Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin qarşımıza qoyduğu vəzifələrin öhdəsindən ləyaqətlə gəlməyə çalışacaq, dövlətçiliyimizin möhkəmləndirilməsi, iqtisadiyyatımızın gücləndirilməsi istiqamətində bütün qüvvəmizi sərf edəcəyik.

**Ərəstun ABDULOV,**
**"Respublika".**

*Ağstafa:*

# Şura iclası işgüzar şəraitdə keçdi



**Ağstafa Rayon İcra Hakimiyyəti başçısı yanında şuranın 9 ayın yekunlarına dair iclası keçirilib. İclasda rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev, başçının müavinləri və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.**

Məhərrəm Quliyev ilk öncə son dövrdə ölkəmizdə baş verən mühüm hadisələr və həyata keçirilən iqtisadi islahatlar kursu barədə ətraflı məlumat verərək qeyd etdi ki, son illər ölkə həyatının bütün sahələrində reallaşdırılan məqsədyönlü tədbirlər öz uğurlu nəticələrini verib.

Şurada rayon icra hakimiyyəti başçısı hesabat məruzəsi ilə çıxış edərək qeyd etdi ki, 2018-ci ilin 9 ayı ərzində Ağstafa rayonu üzrə ümumi məhsulun həcmi 133.1 milyon manat olmuşdur. Keçən ilin eyni dövrü ilə müqayisədə sənaye məhsulunun ümumi həcmi 51.0 faiz, kənd təsərrüfatı məhsullarının həcmi 8.1 faiz artmış, nəqliyyat xidmətində 1.3 faiz, rabitə xidmətində 8.4 faiz, ticarət sahəsində 4.4 faiz artım olmuşdur. Əsas kapitala yönəldilən investisiyaların həcmi 32.1 milyon manat olmuşdur. Son 5 ildə rayon iqtisadiyyatına qoyulan investisiyanın həcmi 311 milyon manat olmuş və 6344 yeni iş yeri açılmışdır ki, bundan 4989 (78.6 faiz) daimi iş yerləridir.

Ağstafa rayonu üzrə 2018-ci ilin doqquz ayı ərzində həyata keçirilmiş bir sıra tədbirlər nəticəsində rayonda 807 nəfər işlə təmin olunmuşdur. Rayon üzrə işlə təmin olunanların (732 nəfər) 91.0 faizi daimi işlərdə işləyənlərdir. İcra hakimiyyəti başçısı Məhərrəm Quliyev əlavə olaraq bildirdi ki, strateji yol xəritəsi 2016-2020-ci illər üçün inkişaf strategiyasını və 2025-ci ilədək olan dövr üçün iqtisadiyyatın rəqabət qabiliyyətinin və sosial rifahının daha da yüksəldilməsinə xidmət edəcəkdir.

Sonda məsələlər ətrafında geniş müzakirələr aparıldı və aidiyyəti təşkilat rəhbərlərinin hesabatı dinlənildi.

**Vəli VƏLİYEV,**
**"Respublika".**

# ŞƏMKİR: DOQQUZ AYIN NƏTİCƏLƏRİ

**Şəmkir rayonunun doqquz ayda sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr müzakirə olunub. Tədbirdə Prezident Administrasiyasının məsul əməkdaşı Orxan Mürsəlov, Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, xidmət sahələrinin rəhbərləri, media və ictimaiyyət nümayəndələri iştirak ediblər.**





Yığıncaqda Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov hesabat məruzəsi ilə çıxış edib. Məruzədə qeyd olunub ki, ölkəmizin sosial-iqtisadi həyatında olduğu kimi, Şəmkir rayonunda da 2018-ci ilin doqquz ayında iqtisadiyyatın əsasını təşkil edən kənd təsərrüfatı, sənaye, tikinti, eləcə də nəqliyyat, rabitə, ticarət və xidmət sahələrində müsbət nəticələr qazanılıb.

Vurğulanıb ki, cari mövsümdə rayonda 16 min 824 hetar ərazidə mühüm strateji məhsul olan taxıl əkilib. Bu isə əvvəlki ildəkindən 2 min 695 hektar çoxdur. 2018-ci ilin 9 ayı ərzində 52 min 750 ton taxıl istehsal edilib. Bunun da 41 min 507 tonu buğdanın, 10 min 932 tonu isə arpanın payına düşür. 310 ton isə vələmir istehsal edilib. Hazırda da rayonda payızlıq taxıl əkini sürətlə davam edir.

Builki mövsümdə rayon üzrə 12 min 690 kiloqram barama tədarük edilərək, "Azəripək" MMC-yə təhvil verilib. Bu da əvvəlki göstəricidən 2 dəfə çoxdur.

2018-ci ilin ilk doqquz ayı ərzində görülən işlərin müzakirəsi zamanı qeyd olunub ki, təkcə rayon mərkəzində deyil, kənd və qəsəbələrdə də abadlıq işləri aparılır. Hazırda isə dövlət vəsaiti hesabına Şəmkir-Abbaslı- Nərimanlı avtomobil yolunda təmir işləri aparılır və yaxın zamanda istifadəyə verilməsi planlaşdırılır. Rayonun kənd və qəsəbələrində məktəb, uşaq bağçası və xəstəxanaların təmir və tikintisinin davam etdirildiyi diqqətə çatdırılıb.

Alimpaşa Məmmədovun məruzəsində, eləcə də çıxışlarda iqtisadiyyatın ayrı-ayrı sahələrində görülən işlərdən, o cümlədən ixracyönümlü məhsullardan hesab olunan baramaçılığın inkişafına göstərilən dövlət qayğısından, qazanılan uğurlardan ətraflı danışılıb.

İclasda rayon xidmət təşkilatlarının hesabatları dinlənərək, qarşıda duran məsələlər və problemlərin həlli yolları müzakirə edilib.

**Eyvaz HƏMİD,**
**"Respublika".**

# Füzuli: yüz min tondan çox taxıl istehsal olunub

**Torpaqlarımızı işğal edən düşmənlə bir neçə addımlıqda yaşayan, işləyən və mübarizə aparan füzulililər ölkədə həyata keçirilən mütərəqqi islahatları rayonun sosial-iqtisadi həyatına tətbiq etməklə kənd təsərrüfatı məhsullarının istehsalını artırırlar. Görülən işlər, həyata keçirilən tədbirlər əhalinin əhval-ruhiyyəsini yüksəldir, onları bütün sahələrdə uğurlar qazanmağa ruhlandırır.**



Prezident İlham Əliyevin respublikada kənd təsərrüfatının və sahibkarlığın inkişafı, yerli istehsalın artırılması, idxaldan asılılığın azaldılması, əhalinin məşğulluğunun yüksəldilməsi, torpaq sahələrindən səmərəli istifadə olunması barədə tapşırıqları rayonda uğurla icra olunur. Cəbhə bölgəsində yaşayan, işləyən və mübarizə aparan füzulililər öz təsərrüfatlarını genişləndirir, taxılçılıq, pambıqçılıq, baramaçılıq, heyvandarlıq və kənd təsərrüfatının digər sahələri ilə məşğul olmaqla həm özlərinin sosial rifahlarını yaxşılaşdırır, həm də ölkəmizdə ərzaq bolluğunun yaradılmasına töhfələrini verirlər.

Horadiz şəhərində 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr edilmiş iclasda səsləndirilən faktlar cəbhə zonasındakı inkişafdan xəbər verir. Rayon icra hakimiyyətinin başçısı Alı Alıyevin hesabat məruzəsində qeyd olunub ki, Füzuli yeddinci ildir ki, respublikanın 100 min tondan çox taxıl istehsal edən rayonları sırasındadır. Bu il rayonda 36 min 300 hektar sahədə taxıl becərilib, 108 min 217 ton məhsul əldə edilib. Taxıl istehsalında Füzulidə yaradılan dörd iri taxılçılıq və bir toxumçuluq təsərrüfatının, həmçinin aqroparkın rolu böyükdür.

Ənənəvi təsərrüfat sahələri olan pambıqçılıq və baramaçılıq inkişaf etdirilir. Rayon kümçüləri bu il 37,5 tondan artıq yaş barama istehsal ediblər. Bu göstərici ilə Füzuli respublikada ən çox barama istehsal edən rayonlar sırasındadır. 2100 hektar sahədə pambıq becərən "ağ qızıl" istehsalçıları da ili yüksək nəticələrlə başa vurmaq niyyətindədirlər.

Diqqətə çatdırılıb ki, 2018-ci ilin 9 ayında rayonda 1209 ton tərəvəz, 2985 ton bostan məhsulları, 1832 ton kartof, 1141,1 ton meyvə, 915 ton üzüm, 2045 ton ət, 20 min 893 ton süd, 244 ton yun, 13.260 min ədəd yumurta istehsal olunub. Rayon əhalisinin heyvandarlıq və bostan-tərəvəz məhsullarına olan tələbatı yerli istehsal hesabına ödənilir və respublika bazarlarına da bir sıra məhsullar çıxarılır.

İcra başçısı rayonun makroiqtisadi göstəricilərindən bəhs edərkən bildirib ki, Füzulidə 2018-ci ilin doqquz ayında ümumi məhsul buraxılışının həcmi 126.484,3 min manat olub. Bütün maliyyə mənbələri hesabına əsas kapitala 7898,1 min manta investisiya qoyulub. 7476,3 min manatlıq tikinti-quraşdırma işləri aparılıb. Bu dövrdə Horadiz şəhərində "Xocalı soyqırımı" qurbanlarının xatirəsinə abidə kompleksi və Əmlak Məsələləri Dövlət Komitəsinin rayon şöbəsi üçün inzibati binası inşa olunub. Hazırda Dövlət Bayrağı Meydanının ərazisində Bayraq Muzeyinin, Bala Bəhmənli kəndi ərazisində rayon mərkəzi xəstəxanasının tikintisi davam etdirilir.

Yığıncaqda təhsil, səhiyyə, mədəniyyət, idman, xidmət sahələrində görülmüş işlər təhlil olunub, uğurlarla yanaşı, mövcud problem və çatışmazlıqlar da göstərilib, qarşıda duran vəzifələr müəyyən edilib.

**Salman ALIOĞLU,**
**"Respublika".**

# ADU-da beynəlxalq konfrans öz işinə başladı



Ötən gün Azərbaycan Dillər Universitetində (ADU) "Tətbiqi dilçiliyin müasir problemləri" mövzusunda üçüncü beynəlxalq konfrans öz işinə başladı. Əvvəlcə konfrans iştirakçıları ümummilli lider Heydər Əliyevin universitetin foyesindəki büstünün önünə gül düzərək xatirəsini ehtiramla yad etdilər. Konfransın işində Böyük Britaniya, Almaniya, Fransa, Çexiya, Polşa, Rusiya, Türkiyə, Gürcüstan, Finlandiya, Yaponiya, Bolqarıstan, Pakistan, Səudiyyə Ərəbistanı və digər ölkələrdən qonaqlar, eləcə də ADU və respublikanın digər universitetlərindən nümayəndələr iştirak edirdilər.

Plenar iclasda çıxış edən ADU-nun rektoru, akademik Kamal Abdulla rəhbərlik etdiyi universitetin Azərbaycanın təhsil sistemində özünəməxsus yer tutduğunu və universitetdə dilçilik məsələlərinə xüsusi diqqət yetirildiyini, bu sahədə geniş araşdırmaların aparıldığını söylədi. Rektor ADU-nun müstəqil təhsil müəssisəsi kimi yaranmasında ümummilli lider Heydər Əliyevin xidmətlərini vurğulayaraq bildirdi ki, bu ali təhsil müəssisəsi 1973-cü ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə yaradılıb və 2000-ci ildə ulu öndərin Sərəncamı ilə profili daha da genişləndirilərək universitet statusu alıb.

İkigünlük konfransda "Birinci eksperimental və müqayisəli dilçilik", "Sosiolinqvistikanın nəzəri və praktik məsələləri", "Xarici dillərin tədrisinə dair müasir yanaşmalar", "Tərcüməşünaslığın aktual problemləri", "Mətnin linqvosemiotik problemləri" bölmələri üzrə müzakirələr aparılacaq.

Konfrans çərçivəsində iştirakçılar Durham Universitetinin professoru Maykl Bayramın mühazirəsində (skayp vasitəsilə), eləcə də Konin Dövlət Tətbiqi Elmlər Universitetinin professoru Barbara Levandovskanın ustad dərslərində iştirak etmək şansı qazanacaqlar.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

# GÖRKƏMLİ ELM XADİMİ

**Bütün dövrlərdə alimə və müəllimə böyük hörmət, qayğı və diqqət olubdur. Haqqında söhbət açacağımız görkəmli alim, akademik və sevimli müəllim Vasif Babazadəyə də bunları şamil etmək olar. Vasif Babazadə 1938-ci il sentyabr ayının 2-də Bakı şəhərində anadan olmuşdur. 1960-cı ildə isə Azərbaycan Dövlət Universitetinin (hazırda BDU-nun) Geoloji-coğrafiya fakültəsini bitirmiş və mühəndis-geoloq ixtisasına yiyələnmişdir. 1961-ci ildən onun bütün elmi, pedaqoji fəaliyyəti Bakı Dövlət Universiteti ilə bağlı olmuşdur. Vasif müəllim bu gün şöhrətli alim və nüfuzlu bir şəxsiyyət kimi xalqımız, habelə elmi ictimaiyyətimiz tərəfindən dəyərincə qiymətləndirilən böyük ziyalıdır. O, uzun illər gənc nəslin hərtərəfli inkişafına xidmət edən, ensiklopedik biliyə malik böyük alim və pedaqoqdur. Vasif Babazadə elm fədaisi, tanınmış ictimai xadim, dərin zəkalı müdrik bir şəxsiyyət olmaqla yanaşı, hər kəsə qarşı olduqca xeyirxah və qayğıkeşdir. Onda olan insanları sevmək və hər kəsin öz dilində danışmaq bacarığı, istedadı isə hər insana nəsib olmur. Vasif müəllim elmi, ictimai və pedaqoji fəaliyyətinə görə bir çox yüksək mükafatlara layiq görülübdür.**

V.Babazadə Bakı Dövlət Universitenin "Faydalı qazıntılar kafedrası"nın bazasında "Strateji növ mineral-xammal resurslarının — geoloji xüsusiyyətləri, əmələgəlmə şəraitləri və kompleks mənimsənilmə, habelə istifadənin fundamental problemləri" istiqamətində yaradılan və formalaşan elmi məktəbin banisidir. Hazırda dünyanın bir çox aparıcı alimləri tərəfindən qəbul edilən akademik Vasif Babazadənin yaratdığı bu elmi məktəb bir neçə istiqamətdə fəaliyyət göstərir. O, ABŞ, Rusiya, Fransa, Almaniya, Türkiyə, İran, Gürcüstan və digər ölkələrin alimləri ilə sıx təmasda olub bir sıra mühüm elmi-tədqiqat işləri aparır.

1973-1980-ci illər keçmiş Azərbaycan Dövlət Universitetində dekan vəzifəsində fəaliyyət göstərən Vasif Babazadə, 1986-cı ildən BDU-nun Faydalı qazıntılar kafedrasının müdiri vəzifəsində çalışır. Bir sıra müxtəlif miqyaslı geoloji xəritələrin tərtib edilməsində Vasif müəllimin xüsusi xidmətləri var. Hələ gənc yaşlarından o, özünün elmi potensialını geologiyanın ən yeni və mürəkkəb sahəsinə: filizəmələgəlmə nəzəriyyəsi və geodinamikanın sintezinə yönəltdi. Etiraf etmək lazımdır ki, iki elmin qovşağında formalaşan bu elmi istiqamət mürəkkəb olmaqla yanaşı, həm də öyrənilməmiş sahədir. 1960-cı illər dünya geologiya elmində bu sahədə hələ ilk addımlar atılırdı. Belə bir zamanda akademik Vasif Babazadənin təşəbbüsü ilə ötən əsrin altmışıncı illərin ikinci yarısından başlayaraq Azərbaycanda da filizəmələgəlmə və geodinamika istiqamətində tədqiqatlara başlanıldı. Respublikamızda bu sahədə keçmiş İttifaqın aparıcı elmi mərkəzləri (Moskva, Novosibirsk) tərəfindən qəbul edilən elmi məktəb yaradıldı. İlk dəfə olaraq "filizformasion analiz"i, "filiz-maqmatik sistemləri" sahəsində tədqiqatlara başlanıldı. Onların vulkano-plutonik komplekslərdə ayrılma prinsipləri göstərildi, ətraflı öyrənilmiş filiz, xüsusən də əlvan metal yataqların geoloji-genetik modeli işlənib hazırlandı. Mürəkkəb xüsusiyyətli ofiolit qurşaqlarının metallogeniyası yeni geodinamik baximdan təhlil edildi. Respublikada mineral-xammal resurslarının kosmik öyrənilməsinin elmi əsası qoyuldu. Hazırda dünyanın bir çox aparıcı alimləri tərəfindən qəbul edilən akademik Vasif Babazadənin yaratdığı bu elmi məktəb bir neçə istiqamətdə fəaliyyət göstərir.

Alimin elmi-pedaqoji fəaliyyəti də diqqətəlayiqdir. 1961-ci ildən fasiləsiz Bakı Dövlət Universitetində işləyən alim geologiya sahəsində Azərbaycan dilində yazılan ilk dərsliklərin müəllifidir. Onun elmi rəhbərliyi altında 11 doktorluq və 30 namizədlik dissertasiyası müdafiə edilmişdir. O, 40-a yaxın monoqrafiya və dərslik kitablarının, habelə 350-dən çox elmi məqalənin müəllifidir.

Akademik V.M.Babazadənin təşəbbüsü ilə 1989-cu ildə BDU-da "Yer ehtiyatlarının aerokosmik tədqiqatları" elmi-tədqiqat laboratoriyası yaradılmış və hazırda o, bu laboratoriyanın elmi rəhbəridir.

O, eyni zamanda Bakı Dövlət Universiteti Elmi Şurasının üzvü, BDU-nun Tədris-Metodiki Şurası və Attestasiya Komissiyasının sədri, "Bakı Dövlət Universitetinin Xəbərləri" (Təbiət elmləri seriyası) jurnalının elmi redaktoru, "AMEA-nın Xəbərləri" (Yer elmləri seriyası) jurnalının redaksiya heyətinin üzvüdür.



V.Babazadə təbii resursların səmərəli istifadəetmə sahəsində əsərlər silsiləsinə görə Dövlət mükafatı laureatı (1978), Əməkdar elm xadimi (2000), "Şöhrət" ordeni (2009), Azərbaycan Milli Elmlər Akademiyasının akademik Musa Əliyev adına mükafatı (2017), Gürcüstan Milli Elmlər Akademiyasının akademik Aleksandr Tvarçrelidze adına mükafatı (Tbilisi, 2018), Bakı Dövlət Universitenin İlin alimi (2007) və digər bir çox yüksək mükafatlara layiq görülmüşdür. Akademik Vasif Babazadə möhtərəm Prezidentimiz İlham Əliyevin sərəncamı ilə 31 avqust 2018-ci ildə "Şərəf" ordeni ilə təltif edilmişdir.

Çoxsaylı geoloqlarımız və bütün elmi ictimaiyyətimiz adından sevimli həmkarımızı 80 illik yubileyi münasibətilə təbrik edir, ona cansağlığı, yeni yaradıcılıq uğurları arzulayıram:

Sən öz zəhmətinlə çatdın ad-sana, Elmin qüdrətindən güc alan alim, Yaxşı övlad oldun Azərbaycana, Elmin zirvəsinə ucalan alim.

Dosta sədaqətli, düşmənə sərtsən, Sən doğma torpağa, yurda bağlısan. Sözündə qətisən, işində mərdsən, Elmin yollarına qalxmadın asan.

**Hikmət MAHMUD,**
**geologiya-mineralogiya elmləri doktoru, professor.**

# İnsan kapitalı cəmiyyətin davamlı inkişafının təminatıdır

Özlüyündə çox dərin məna daşıyan "İnsan" və "kapital" sözlərinin birləşərək əmələ gətirdiyi "insan kapitalı" o qədər sürətlə yayılıb və hətta yayılmaqdadır ki, artıq əksər ölkələr öz modern iqrtisadi siyasətini məhz bunun üzərində qurur.

İnsan kapitalı şəxsin özünü tam realizə etməsi üçün onun gələcəkdəki peşə fəaliyyətində gəlir qazanmağa kömək olan və kömək ola biləcək bilik və bacarıqların əldə olunmasına qoyulan investisiyaların cəmidir. Müasir dövrdə strateji önəm daşıyan tükənməyən və daim təkmilləşən təbii sərvətlər arasında ən böyük əhəmiyyətə malik olanı və ən dəyərlisi insan potensialıdır. İlk dəfə iqtisadiyyata Teodor Shultz tərəfindən gətirilən "insan kapitalı" anlayışı artıq bu gün modern iqtisadiyyatın ayrılmaz bir hissəsinə çevirilib. 21-ci əsrin "təhsil əsri" adlandırıldığı bu dövrdə insan kapitalına qoyulan sərmayələr əvəzolunmazdır. İqtisadiyyatın banisi A.Smit yazırdı ki, "faydalı iş istehsalının artımı hər şeydən əvvəl işçinin çevikliyinin və bacarığının yüksəldilməsindən, ondan sonra isə işlətdiyi maşın və alətlərin təkmilləşdirilməsindən asılıdır". O hesab edirdi ki, əsas resurslar maşın və başqa alətlərdən, tikililərdən, torpaqdan və əhalinin və cəmiyyət üzvlərinin əldə edilmiş faydalı bacarıqlarından ibarətdir. Qeyd edirdi ki, "bu cür bacarıqların əldə edilməsi bacarıq sahibinin tərbiyəsi, təlimi və ya şagirdliyi dövründə təkmilləşməsi zamanı xərc tələb edir, bu bir növ onun şəxsiyyətini reallaşdıran əsas kapitalı təşkil edir". Bu bacarıqlar, müəyyən şəxsin dəyərinin tərkib hissəsi olmaqla bərabər məxsus olduğu cəmiyyətin də sərvəti olur.

Dünya təcrübəsi göstərir ki, ölkəni inkişafa aparan yol onun sahib olduğu təbii və maddi resurslardan deyil, bu resurların hərəkətverici qüvvəsi olan insanlardan keçir. Yüksək inkişaf səviyyəsinə çatmış ABŞ, Yaponiya və Qərbi Avropa dövlətlərinə nəzər salsaq, bu ölkələri bu səviyyəyə çatdıran amilin yüksək təhsil səviyyəsi və təhsilə ayrılan vəsaitin olduğu aşkara çıxır. Xüsusilə Yaponiya, demək olar ki, heç bir təbii sərvəti olmayan bu ölkə öz yüksək inkişaf səviyyəsinə görə dünyanın bir çox geniş təbii sərvətə malik olan ölkələrini geridə qoyur. Və dünya bazarında öz istehsal etdiyi texnika-texnologiyalar ilə tanınaraq bu baxımdan lider mövqedə çıxış edir. Bu isə bu ölkədə insan kapitalına — əhalisinin təhsilinə, yüksək həyat səviyyəsinin təmin olunmasına sərf edilən xərclərin, ümumiyyətlə aparılan sosial yönümlü strategiyanın nəticəsidir. Odur ki, iqtisadiyyatda insan kapitalı insana yönələn investisiyaların həcmi ilə ölçülür. Dünya Bankının məlumatına əsasən iqtisadi artımın 16 faizi fiziki kapital, 20 faizi təbii ehtiyatlar, 64 faizi isə insan kapitalı hesabına əldə olunub. İnsan kapitalına yönələn xərclərin artması nəticədə həmin ölkənin gələcəkdə daha da inkişaf etməsinə səbəb olur.

Müstəqillik qazanmış Azərbaycan Respublikasında müasir anlamda insan inkişafı ilə bağlı vəziyyətin fasiləsiz monitorinqinin aparılması, təhlil və qiymətləndirmələr əsasında insan inkişafı prosesinin idarə edilməsi ilk dəfə ümumilli lider Heydər Əliyev tərəfindən həyata keçirilmişdir. Onun təşəbbüsü ilə Azərbaycan Respublikasında BMT-nin İnkişaf Proqramı ilə birlikdə insan inkişafı haqqında ilk hesabatlar hazırlanmışdır. Bu layihə əsasında insan potensialının inkişafının ölkədəki vəziyyətinin təhlilinə 1994-cü ildən başlanmışdır.

Son illər respublikamızda həyat sürətlə dəyişir, insanların yaşayış səviyyəsi daha da yaxşılaşır, yeni-yeni iqtisadi və sosial layihələr həyata keçirilir, genişmiqyaslı tikinti-abadlıq işləri aparılır. Bütün bunlar Azərbaycanın getdikcə artan iqtisadi qüdrətindən xəbər verir. Bu isə Prezident cənab İlham Əliyevin apardığı Azərbaycan Respublikasında "qara qızılın" insan kapitalına çevrilməsi siyasətinin nəticəsidir. Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı üzrə Dövlər Proqramının icrasının nəticələrinin təhlili, dövlətin qarşıdakı dövr üçün müəyyənləşdirdiyi prioritetlər yenə də bir məqama işıq salır ki, dövlətin həyata keçirdiyi siyasətin önündə vətəndaş amili dayanır. Ölkəmizin Yaponiya ilə geniş diplomatik əlaqələrinin olması bizə bu yolda Yaponiyanın təcrübəsindən yararlanaraq geniş uğurlara imza atmağa imkan verir. Bütün bunların nəticəsidir ki, Azərbaycanda "Qlobal İnnovasiya İndeksinin göstəriciləri ildən-ilə daha da yaxşılaşır. Burada ölkələrin reytinqi yeddi subindeksdən (altindeks) ibarət orta ədəd kimi hesablanır və fəaliyyətin müxtəlif növlərində innovasiyaların inkişafı haqqında məlumatları nümayiş etdirir: İnstitutlar, İnsan kapitalı və araşdırmalar, İnfrastruktur, Bazarın inkişafı, Biznesin inkişafı, Bilik və texnologiyalar, Yaradıcılıq fəaliyyəti. Azərbaycan 126 ölkənin olduğu bu sıralamada 82-ci yeri tutur (ikinci il). Ölkəmiz "İnstitut", "İnsan kapitalı və elm", "Daxili bazar inkişafı" və "Texnologiya və bilik iqtisadiyyatının inkişafı" bloklarında öz mövqeyini daha da yaxşılaşdırıb.

Xüsusilə, Azərbaycan "Daxili bazarın inkişafı" blokunda "İnnovasiya resursları" alt indeksində 26-cı yerdədir. Eyni blokda, Azərbaycan sərmayə baxımından üçüncü yerdədir. "İnstitutlar" blokunda ölkənin biznes mühiti baxımından 38-ci yeri tutur. "Texnologiya və bilik iqtisadiyyatının inkişafı" blokunda isə yenilikçi nəticələrin alt indeksi əsasında "İnformasiya yayılması" göstəricisi üzrə Azərbaycan 37-ci yeri tutur.

Azərbaycan dövlətinin həyatında keyfiyyətcə yeni mərhəyə yol açan Prezident cənab İlham Əliyevin "qara qızılı" "insan qızılına" çevirən konsepsiyası innovativ inkişafın və sosial rifahın təminatçısıdır. İnnovativ inkişaf ölkənin əsas prioriteti olduğundan bu gün dünyada baş verən iqtisadi böhranların Azərbaycan Respublikasına təsiri nisbətən az olmuşdur. İnsan kapitalı vasitəsilə cəmiyyətin kreativliyinin artırılması ölkənin davamlı inkişafının təminatçısı kimi çıxış edir. Prezident İlham Əliyevin bu istiqamətdə həyata keçirdiyi siyasət nəticəsində ölkədə təhsilin səviyyəsinin yüksəlməsi ilə yanaşı, gənclərimizin xaricdə təhsil imkanları daha da genişlənmişdir. Bu sahədə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rolu xüsusi qeyd edilməlidir. Ölkədə həyata keçirilən inkişaf konsepsiyası, 2030-cu il üçün planlaşdırılmış "Davamlı inkişaf məqsədləri" sənədlərində nəzərdə tutulmuş məqsədlərə nail olunması prosesi kreativ cəmiyyətin formalaşması ilə bilavasitə əlaqədardır.

**Ayan MƏHƏRRƏMLİ,**
**Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası.**

# GDU-nun 80 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNAN SPARTAKİADA






Zəngin və şərəfli tarixə malik Gəncə Dövlət Universitetinin (GDU) 80 illik yubileyinə həsr olunan spartakiadanın təntənəli açılış mərasimi olmuşdur. Açılış mərasimində universitetin rektoru, professor Yusif Yusibov, Milli Məclisin deputatı Pərvin Kərimzadə, Gəncə Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Müşfiq Cəfərov, ali təhsil müəssisəsinin professor-müəllim heyəti, tələbələr və idmançılar iştirak edirdilər. İlk olaraq hazırda Gəncə Dövlət Universitetində təhsil alan bir çox beynəlxalq və respublika əhəmiyyətli yarışlarda qalib olmuş idmançılar, sonra isə spartakiadanın iştirakçı komandaları arenaya çıxdılar.

Dövlət Himninin səsləndirilməsi ilə Spartakiada açıq elan olundu.

Universitetin rektoru, professor Yusif Yusibov iştirakçıları, qonaqları və idmançıları salamlayaraq, bu möhtəşəm idman bayramı münasibətilə təbrik edərək bildirdi ki, respublikamızda bədən tərbiyəsi və idmana olan dövlət qayğısı prioritet məsələlərdəndir. Bunun bariz nümunəsidir ki, Azərbaycan idmanı artıq yüksək inkişaf səviyyəsinə çatıb, medalların sayı gündən-günə artmaqdadır.

Professor Yusif Yusibov dövlətin idman siyasətinin həyata keçirilməsində GDU-nun daim fəallıq göstərməsindən söz açaraq bildirdi ki, bu fəaliyyət universitetin İdman Klubu vasitəsilə həyata keçirilir. Ölkəmizdəki universitetlərin idman klubları arasında GDU-nun da İdman Klubu həm zəngin tarixinə, həm də müasir uğurlarına görə xüsusi yer tutur. Klub daim universitet tələbələri arasında müxtəlif turnirlər təşkil edir ki, onlardan da ən möhtəşəmi spartakiadadır. Rektor, peşəkar idman müəllimlərinin və idmançıların yetişdirilməsi sahəsində GDU-nun İdman Klubunun rolundan, bu vaxta qədər klubun yetirmələrinin ölkəmizdə və beynəlxalq arenalarda qazandıqları nəticələrdən ətraflı söhbət açdı. Spartakiadanın ölkə idmanı üçün əhəmiyyəti vurğulanaraq gənc nəslin təlim-tərbiyəsində belə tədbirlərin rolu xüsusi qeyd olundu. Çıxışının sonunda professor Yusif Yusibov ölkə Prezidentinin idmana, müəllim və tələbələrə göstərdiyi diqqət və qayğıya görə pedaqoji kollektiv adından dərin minnətdarlığını bildirərək, idmançılara uğurlar arzuladı.

Gələn il Gəncənin Avropanın İdman Şəhərləri kimi beynəlxalq layihəyə ev sahibliyi edəcəyini deyən Gəncə Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Müşfiq Cəfərov Azərbaycanda idmanın inkişafına öz töhfələrini verən GDU-nun idmançılarının bu layihə çərçivəsində təşkil olunacaq yarışlarda da uğur qazanacaqlarını inamla ifadə etdi və idmançılara yeni nailiyyətlər arzuladı.

Sonra idmançıların ayrı-ayrı idman növləri üzrə nümunəvi çıxışları oldu.

Tədbirin sonunda mədəniyyət və incəsənət xadimləri idmançılar qarşısında çıxış etdilər.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# "Ruzgar" Ekoloji İctimai Birliyinin seminarı



2018-ci il oktyabrın 21-27 tarixlərində Davamlı üzvi çirkləndiricilərin məhv edilməsi üzrə Beynəlxalq Şəbəkə **"QURĞUŞUNLA ZƏHƏRLƏNMƏYƏ SON QOYAQ"** aksiyalar həftəsi keçirmişdir. "Ruzgar" Ekoloji İctimai Birliyi bu münasibətlə oktyabrın 25-də informasiya mübadiləsi üzrə seminar təşkil etmişdir. Konfransda elmi işçilər, ekspertlər, Kütləvi informasiya vasitələrinin və QHT nümayəndələri iştirak etmişlər. Konfransın məqsədi əhali arasında, uşaqların boyaların təsirindən qorunması və boyalarda qurğuşunun miqdarına məhdudiyyət qoyulması sahəsində məlumatlandırma və maarifləndirmə işinin təşkilindən ibarət olmuşdur.

Konfransı giriş sözü ilə Birliyin sədri Professor İslam Mustafayev açmış və qeyd etmişdir ki, dünyanın 90-dan çox ölkəsində istifadə edilən boyalarda qurğuşunun miqdarı təyin olunmuş və göstərilmişdir ki, bu boyaların 70%-dən çoxunda qurğuşunun miqdarı yol verilən həddən yüksəkdir. Qurğuşunun uşaqların sağlamlığına ciddi mənfi təsirindən bəhs edən ekspertlər bu barədə dünya praktikasından misallar gətirmişdir. Uşaq xəstələnmələrinin ölkələrin iqtisadiyyatına vurduğu ziyan BMT Ətraf Mühit Proqramının tövsiyə etdiyi metodlarla hesablanmışdır. Hazırda Ümumdünya Səhiyyə Təşkilatı 2030-cu ildən sonra boyalarda qurğuşunun istifadə edilməsinə qadağa qoymaq haqqında qərar hazırlamışdır. Qeyd edək ki, bir neçə ildir ki, ölkəmizdə bu sahədə təbliğat kampaniyası aparılmaqdadır və boyalarda qurğuşunun miqdarını tənzimləyən qanunvericilik aktlarının qəbul edilməsi sahəsində müəyyən niyyətlər vardır.

**M.MİRZƏ,**
**"Respublika".**

# Ağdam: yeni təhsil ocağı



Cəbhə bölgəsində yerləşən kəndlərdə və qoşunların təmas xəttinə yaxın ərazilərdəki məktəblərin hamısında düşmən tərəfindən atılan güllələrin səsi aydın eşidilir. Mübaliğəsiz demək olar ki, barıt qoxulu dərs ili uğurla və yüksək göstəricilərlə davam edir. Düşmənlə üz-üzə olan təhsil ocaqlarının bir çoxu əsaslı və yaxud cari təmir olunub. Həm də yeni məktəb binaları inşa olunaraq istifadəyə verilir.

Bu günlərdə Bənövşələr kəndində yeni inşa olunan 260 şagird yerlik məktəb binası istifadəyə verilib. Bu münasibətlə rayon ictimaiyyətinin, təhsil işçilərinin, valideynlərin, kənd sakinlərinin iştirakı ilə açılış mərasimi keçirilib.

Rayon icra hakimiyyətinin başçısı Vaqif Həsənov mərasimdə çıxış edərək məktəbin kollektivini və kənd sakinlərini əlamətdar hadisə münasibətilə təbrik edib, ölkəmizdə gedən sosial-iqtisadi inkişafdan, təhsil sahəsində həyata keçirilən məqsədyönlü tədbirlərdən, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın təhsilə göstərdiyi diqqət və qayğıdan danışıb. Şagirdlərə onlar üçün yaradılan şərait müqabilində yaxşı oxumağı, elmə, biliyə daha dərindən yiyələnməyi tövsiyə edib.

Müəllim, şagird və kənd ictimaiyyətinin nümayəndələri göstərilən diqqət və qayğıya, yaradılan şəraitə görə dövlətimizin başçısı İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Sonra tədbir iştirakçıları məktəbdə yaradılmış şəraitlə tanış olublar. Məktəb binasında sinif otaqları, fənn kabinələri, fizika laboratoriyası, kompüter otağı, kitabxana, akt zalı yaradılıb, təhsil ocağı yeni inventar və avadanlıqla təchiz edilib.

Bildirilib ki, uşaqların keyfiyyətli təhsil alması və hərtərəfli qayğı ilə əhatə olunması, onlar üçün zəruri şəraitin yaradılması, böyüməkdə olan nəslin layiqli vətəndaş kimi formalaşması Azərbaycanda dövlət uşaq siyasətinin başlıca prinsiplərindəndir. Ölkəmizin hər yerində körpələr evləri, uşaq bağçaları, internat və orta məktəblər tikilir və əsaslı şəkildə yenidən qurulur. Ağdamda bu gün açılışı olan uşaq bağçası bu sahəyə dövlətin diqqət və qayğısının bariz nümunəsidir.

**Salman ALIOĞLU,**
**"Respublika".**

# Oğuz: Muxas kəndinin sosial həyatı gündən-günə yaxşılaşır



Bir tərəfdən Böyük Qafqaza söykənən, sahilindən dəlisov dağ çayı keçən Muxasın coğrafi mövqeyi maraq doğurmaya bilmir. Yayı sərin, qışı sərt, yazı iliq nəfəsli, payızı xəzan örtüklü olur Muxasın. Bu kəndin uzaq, yaxın keçmişini bilənlər, bu gününün canlı şahidi olanlar, sabahı haqqında məlumatlılar deyirlər ki, Muxas çox inkişaf edib, müasirləşib, yeniləşib. Kənd icra nümayəndəliyinin, bələdiyyənin rəhbərləri bu inkişafın şahidi və iştirakçısı olan, zəhmətin hər üzünü görüb, öz bacarığı, işgüzarlığıyla, hamıyla səmimi münasibəti ilə hörmət qazanan, təsərrüfat veteranı kimi tanınan Mehralı Səmədovun Muxasın dünəni, bu günü və sabahı haqqında daha çox məlumatlı olduğunu söylədilər, onunla söhbətləşməyimizi məsləhət bildilər. Öncə qısa arayış verək ki, Mehralı Səmədov uzun illər sürücü işləyib, kənd camaatının istəyi ilə təsərrüfat rəhbəri, kənd bələdiyyəsinin sədri seçilib. İndi bu kəndin veteranı, yol göstərəni, sözünü söyləyib, dərd-sərini lazım gələn yerə çatdırmağı bacaran adam kimi çağırılır. Ali təhsili olmasa da, insanlığa, qayğıkeşliyə, təəssübkeşliyə, vətənpərvərliyə xas olan bütün keyfiyyətləri özündə cəmləşdirir.

—Kəndimiz, onun dünəni, bu günü, adamları, elə mənim haqqımda eşitdiklərinizin hamısı keçmişdən bu yana qoruna-qoruna, artırıla-artırıla gəlib çatıb. Sürücü olanda da, kolxoza rəhbərlik edəndə də, bələdiyyə sədri işləyəndə də həmişə kənd camaatının qayğısı, arzusu, istəyi ilə yaşamışam.





Mehralı Səmədovun söhbətindən, Muxasın dünəni ilə bu gününün müqayisəsindən qənaətim bu oldu ki, sözügedən yaşayış məntəqəsi müstəqillik illərinin ən inkişaf edən, müasirləşən ünvanlarındandır. 1200 nəfərdən çox əhalisi, 280 təsərrüfatı olan kənddə müasirliyin, bəlkə də bütün keyfiyyətləri var. Vaxt var idi, tez-tez sel daşqınlarına məruz qalan Muxasın aşağı məhəlləsinin adamları güclü yağışlar yağanda kəndin Samağar adlanan ərazisinə yığışardılar. Sel yolları dağıdar, rayon mərkəzinə adamlar dağ cığırları ilə gedərdilər.

—İndi tamam başqa aləmdir. Muxasda sosial abadlıq o səviyyəyə çatıb ki, çoxları artıq kənd şəhərə yaxınlaşır, onun sosial həyatı gündən-günə yaxşılaşır deyir, - söylədi Mehralı Səmədov. Söhbətinə davam edib aşağıdakıları söylədi:

—Muxaslıların əkin-biçinləri kənddən çox aralıda olan ərazilərdədir. Onlar burada taxıl, qarğıdalı əkirlər, bostan-tərəvəz yetişdirirlər. Kəndə yaxın olan Yuxarı Muxas ərazisi də neçə illərdir istifadədədir. Bir sözlə, mövcud əmlak paylarından, boş olan torpaq sahələrindən istifadə kənd əhalisinin iqtisadiyyatını ildən-ilə yaxşılaşdırır. Hər gün onlar bazara yüz kiloqramlarla lobya, xiyar, pomidor, kartof və digər ərzaq məhsullarını satışa aparırlar. Maldarlıq da əsas məşğuliyyət sahəsidir. Bir sözlə, kənd camaatımızın təknələri həmişə çörəkli, evləri ruzi-bərəkətli, iqtisadiyyatları möhkəmdir.

Veteran təsərrüfatçının zəngin təəssüratlarla dolu söhbətindən onu da öyrəndik ki, vaxtı ilə rayon mərkəzinə gündə bir dəfə avtobus gedib-gəlirdisə, indi gün ərzində 5-6 dəfə Muxas-Oğuz marşrutunda sərnişin avtobusunu görmək olar. Əvvəllər yol Oğuz-Şəki magistralına kimi istifadə üçün əlverişsiz idi. Artıq bir neçə vaxtdır ki, muxaslılar müasir standartlar səviyyəsində salınan asfalt yoldan istifadə edirlər.

—Təkcə yol yox, başqa sosial məsələlər də öz həllini tapır,- deyə söhbətimizin iştirakçısı olan kənd ərazi icra nümayəndəsi Xaqani Xudiyev bildirdi. Yaponiya səfirliyinin dəstəyi ilə tikilən həkim məntəqəsi də muxaslıların səhiyyə xidmətinə olan tələbatını layiqincə ödəyəcək, çünki bura lazımi tibbi avadanlıq və aparatlarla təmin ediləcək. Kəndə təbii qaz çəkilişi də bizə bəxş olunan böyük hədiyyələrdəndir.

**Söhbəti hazırladı:**
**Rasim AMANOV,**
**“Respublika”.**

# Bərdə: “Ağ qızıl” yığımı sürətlə davam edir

Azərbaycanda son illərdə qeyri-neft sektorunun inkişaf etdirilməsi, iqtisadiyyatın neftdən asılılığının aradan qaldırılması istiqamətində ölkə Prezidenti cənab İlham Əliyev bir çox mühüm qərar və sərəncamlara imza atmışdır. Respublikada aqrar sahənin, o cümlədən gəlirli, ənənəvi sahə olan pambıqçılığın inkişaf etdirilməsi, onun ilbəil artan dinamikası müşahidə olunur. Pambıqçılığın inkişaf etdirilməsi üçün ölkə başçısının rəhbərliyi ilə bölgələrdə müşavirələr keçirilir.

Münbit torpağa və əlverişli iqlimə malik olan Bərdə rayonu pambıqçılığın yüksək təşəkkül tapdığı bölgələrdən biridir. 25 mart 2018-ci ildə respublika Prezidenti İlham Əliyev Bərdədə keçirdiyi müşavirədə demişdir: “Şadam ki, Bərdə rayonunda pambıqçılığın şöhrəti bərpa olunur”. Buna görə də bərdəlilər pambıqçılığın inkişafına böyük önəm verirlər. Məlumdur ki, pambıqçılıq gəlirli sahə olmaqla yanaşı həm də insanların işlə təminatında mühüm rol oynayır. Aran Qarabağda böyük rayonlardan olan, hazırda yüksək inkişaf tempinə malik Bərdə rayonunda pambıqçılığın vəziyyəti ilə bağlı rayon icra hakimiyyəti başçısının müavini İlham Məmmədovla həmsöhbət olduq. Müsahibim bildirdi ki, ötən il rayon üzrə 8518 ha sahədə pambıq əkilmişdi. Cari ildə bu rəqəm 9630 hektara çatdırılmışdır. Bundan MKT-nin Bərdə filialı 5320 ha, “Azərpambıq” Bərdə filialı 3820 ha, Kənd təsərrüfatı MMC 230 ha, fərdi qaydada isə 260 ha sahədə pambıq əkilərək yüksək aqrotexniki qulluq göstərilmişdir. Sahələr kifayət qədər suvarma suyu ilə təmin olunmuş, alağın yox edilməsi üçün kultivasiya işləri aparılmış, vaxtlı-vaxtında herbisidlər vurulmuş, torpaqların şum altı və şum üstü üzvi və mineral gübrələrlə təminatı həyata keçirilmişdir. Hazırda havaların əlverişli keçməsindən istifadə edərək bütün qüvvələr məhsul yığımının optimal müddətə başa çatdırılması üçün səfərbər olunmuşdur.



Qeyd etmək lazımdır ki, rayon rəhbərliyi vəziyyəti ciddi nəzarətdə saxlayır. Mütəxəssislərin fikrincə, bu il məhsuldarlıq ötən ildəkindən çox gözlənilir. Pambığın toplanması və məntəqələrə daşınması üçün rayonda kifayət qədər texnika mövcuddur. Belə ki, 42 ədəd pambıqyığan kombayn nizamlı vəziyyətdədir. MKT-nin Bərdə filialında 25 ədəd kombayn, 102 qoşqu lafeti, 51 ədəd traktor, “Azərbambığ”ın Bərdə filialında 15 ədəd kombayn, 74 qoşqu lafeti, 37 traktor, “Aqrolizinq”in Bərdə şöbəsində 2 kombayn, 7 traktor, 14 qoşqu lafeti vardır. 23 oktyabr 2018-ci il tarixə qədər MKT-nin Bərdə filialında 3500 ha sahədə yığım aparılaraq 9811 ton, “Azərpambığ”ın Bərdə filialında 2000 ha sahədən 6040 ton, Kənd təsərrüfatı MMC 90 ha sahədən 261 ton, 100 ha fərdi yığım sahəsindən 282 ton məhsul əldə olunmuşdur. Rayon üzrə pambıq yığımına ümumilikdə 4070 nəfər insan cəlb olunmuşdur. Zəhmətkeşlərin əməkhaqqı topladığı məhsula görə dərhal ödənilir. Fermerlərə hər kq pambıq üçün dövlətin verdiyi 0,10 AZN subsidiya ilə birlikdə cəmi 0,75 AZN civarında pul ödənilir.

Rayonda fəaliyyət göstərən fermer Zülfiyyə Hüseynova ürəkaçan nailiyyətlər əldə etmişdir. Birinci yığımda 16 ha sahədən 75,2 ton məhsul əldə olunmuşdur. Bu isə hər hektardan orta hesabla 47 sentner məhsul deməkdir. Mütəxəssislərin proqnozuna görə, mövsümün sonuna bu göstərici 52 sentnerə yaxın olacaqdır. Zərif cinsin nümayəndəsi gələn il 30 ha sahədə pambıq əkini aparmağı qarşısına məqsəd qoymuşdur. Fermer Elman Nərimanov ötən il 85 ha sahədə, cari ildə isə 115 ha sahədə “ağ qızıl” becərmişdir. Qeyd etmək lazımdır ki, ölkə Prezidentinin imzaladığı sərəncamla ötən il yalnız subsidiya şəklində fermer Elman Nərimanov dövlətdən 37 min manat pul almışdır. Ötən il fermerlərə mineral gübrə üçün hər hektara 100 manat, cari ildə isə bu rəqəm artaraq 150 manat olmuşdur. Bundan başqa, herbisidlərə görə fermerlərə hər hektara 50 manat civarında pul ödənilir. Göründüyü kimi, pambıqçılığa göstərilən yüksək dövlət qayğısının nəticəsidir ki, ildən-ilə əkin sahələri genişləndirilir.

Sonda müsahibim bildirdi ki, bərdəlilər pambıq istehsalında daha yüksək nailiyyətlər əldə etmək üçün əzmlə çalışırlar.

**Vəli VƏLİYEV,**
**“Respublika”.**

## İmişli Rayon İcra Hakimiyyəti İmişli şəhərində 48 mənzilli yaşayış binasının tikintisinin satınalınması ilə əlaqədar

## AÇIQ TENDER ELAN EDİR

**Tender 1 (bir) lot üzrə aparılır:**

**Lot-1.** İmişli şəhərində 48 mənzilli yaşayış binasının tikintisinin satınalınması.

Tenderdə iştirak etmək üçün iddiaçılar 200 manat məbləğində pul vəsaitini aşağıdakı hesaba köçürdükdən sonra əsas şərtlər toplusunu tender komissiyasından ala bilərlər.

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır.

*Təşkilat: İmişli YXO*
*Hesab: AZ49AİİB32051019446700201167*
*VÖEN: 5500080861*
*Bank: “Kapital Bank”ın İmişli rayon filialı*
*Kod: 200673*
*VÖEN: 9900003611*
*Müxbir hesab:*
*AZ37NABZ01350100000000001944*
*SWİFT BİK AİİBAZ 2X*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar iştirak etmək üçün 29 noyabr 2018-ci il saat 17.00-a qədər aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün müraciət;*
*- iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödəmələrə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış;*
*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (forma 1 və forma 2);*
*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*- analoji işlərdə təcrübəsi, iddiaçının potensial texniki və kadr imkanları haqqında rəsmi məlumat;*
*- iddiaçının tender təklifi Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır.*

Tender təklifi 2 nüsxədə (əsli və surəti) tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı ilə birlikdə 10 dekabr 2018-ci il saat 17.00-a qədər ikiqat zərfdə bağlanmış və möhürlənmiş şəkildə İmişli Rayon İcra Hakimiyyətinə (M.Əsədov küçəsi, 3) təqdim edilməlidir.

Tender təklifi tender proseduru keçirildiyi tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır.

Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı tender proseduru keçirildiyi tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmaqla tender təklifi ilə birlikdə təqdim olunur. Bank təminatını tender təklifi zərfində təqdim etməyən iddiaçının tender təklifi etibarsız sayılır və qiymətləndirilməyə buraxılmır.

İddiaçının tender zərfləri 11 dekabr 2018-ci il saat 11.00-da İmişli Rayon İcra Hakimiyyətində açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tender haqqında məlumatları aşağıdakı ünvandan almaq olar:

**İmişli Rayon İcra Hakimiyyətinin tender komissiyası**
**Ünvan: İmişli şəhəri, M.Əsədov küçəsi, 3**
**Əlaqələndirici şəxs: Orxan Nağıyev**
**Telefon: 6-29-51, (050) 380-65-27**

## Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi yanında Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dövlət Xidməti

## AÇIQ TENDER ELAN EDİR

**Tender 1 lot üzrə keçirilir:**

**Lot-1.** İnventarın alınması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımı texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu ala bilərlər.

**İştirak haqqı hər lot üzrə 160 (yüz altmış) AZN**

**Telefon: (012) 342-00-41**
**Əlaqələndirici şəxs: Mehman Məmmədov**
**Ünvan: Xırdalan şəhəri, Nizami Gəncəvi küçəsi.**

**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:**

*Hesab: AZ09CTRE00000000000002918301*
*VÖEN: 1701827181*
*DXA: 210005*
*Müxbir hesab:*
*AZ41NABZ01360100000000003944*
*VÖEN: 1401555071*
*S.W.İ.F.T. Bik: CTREAZ 22*
*Təsnifat kodu: 142319*
*Büdcə səviyyəsi kodu 3*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün ərizə;*
*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*-tender təklifi (zərflərin açıldığı gündən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*-tender təklifi qiymətinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının süreti;*
*-iddiaçının son bir il ərzində maliyyə vəziyyəti haqqında bank arayışı;*
*-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*-iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 29 noyabr 2018-ci il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 10 dekabr 2018-ci il saat 18:00-a qədər təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Tender zərfləri 11 dekabr 2018-ci il tarixdə, saat 14:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

# “Realliq.info”nun baş redaktoru İkram Rəhimov saxlanıldı, DTX araşdırır

**Azərbaycan Respublikasının vətəndaşı Rəhimov İkram Rafiq oğlunun tabeçiliyində olan şəxslərlə birlikdə “Realliq.info” və digər “reket” informasiya saytları yaradıb, həmin internet qəzetlərin jurnalistləri adı ilə ayrı-ayrı vətəndaşların barəsində rüsvayedici və böhtan xarakterli məlumatları mətbu orqanlarında müntəzəm yayıb dayandırılması müqabilində pul tələb etməsi və alması, bu üsulla müxtəlif idarə və təşkilatlarda çalışan şəxslərdən, sahibkarlardan dövri haqq toplaması barədə daxil olmuş çoxsaylı şikayətlər Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) araşdırılıb.**

DTX-nin ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, məhkəmə qərarı əsasında aparılmış əməliyyat tədbirləri ilə İkram Rəhimovun əlaqədə olduğu şəxslərlə birgə törətdiyi həmin silsilə cinayət əməlləri müfəssəl qeydə alınıb.

İkram Rəhimov 2018-ci il oktyabrın 26-da Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 182.2.1-ci və 182.2.2-ci maddələri üzrə (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən təkrarən hədə-qorxu ilə tələb etmə) cinayət əməllərində şübhəli şəxs kimi saxlanılaraq, cinayət məsuliyyətinə cəlb edilib.

Hazırda istintaq araşdırmaları davam edir.

**AZƏRTAC**

TƏKRAR

## ELAN

Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentlik (Bərpa Agentliyi) Azərbaycan Respublikasının büdcə vəsaiti hesabına Tərtərçayın məcrası boyunca, Tərtər şəhəri və Yuxarı Qarabağ Kanalı arasındakı 20 km uzunluğunda olan ərazidə daşqınlardan müdafiə və məcrabərpa tədbirlərinin həyata keçirilməsi üçün Layihə-smeta sənədlərinin hazırlanması üzrə Açıq Tender müsabiqəsi keçirir.

Layihənin məqsədi: Tərtərçayın Tərtər şəhəri və Yuxarı Qarabağ Kanalı arasındakı daşqınlara qarşı həssas və fəlakətli daşqın zərərləri ilə nəticələnə bilən 20 km-lik hissəsində daşqınlardan müdafiə və məcrabərpa tədbirlərinin aparılması məqsədilə Layihə-smeta sənədlərinin hazırlanması və ekspertizadan keçirilməsi.

Layihənin hazırlanması 2 mərhələdən ibarətdir: Birinci mərhələdə layihə hazırlanaraq aidiyyəti orqanlar ilə razılaşmalar yerinə yetirilməlidir. İkinci mərhələdə isə işçi layihə hazırlanaraq Sifarişçiyə təhvil verilməlidir.

Oferta iki hissədən ibarətdir - ixtisas-texniki və maliyyə təklifi. Təkliflər ardıcıllıqla qiymətləndiriləcəkdir. Belə ki, oferent ixtisas-texniki seçim mərhələsini keçərsə, növbəti mərhələdə onun maliyyə təklifi qiymətləndiriləcəkdir.

Açıq tenderin keçirilməsində əsas məqsəd yuxarıda qeyd olunan tender predmeti üzrə yüksək texniki və maliyyə potensialına malik, peşəkar və səriştəsi olan layihə təşkilatlarını satınalma proseduruna dəvət etməkdir. Tenderin keçirilməsində Azərbaycan Respublikasının “Dövlət Satınalmalar haqqında” Qanununun alqı-satqı şərtləri əsas tutulacaqdır.

İddiaçıların açıq tenderdə iştirak etmək üçün göstəriciləri aşağıdakı meyarları tam əhatə etməlidir:

-İddiaçıların oxşar və analoji işlərdə layihə-smeta sənədlərinin hazırlanması üzrə geniş təcrübəsi olmalıdır (işlərin siyahısı, layihələndirilən ərazilər və icra olunmuş işlərin məbləği göstərilməklə);

-Layihə işlərinin yerinə yetirilməsi üçün iddiaçının müvafiq layihələndirmə səriştəsi, lazımi texniki, maliyyə və professional imkanları olmalıdır;

-Son 2 ildə iddiaçının maliyyə dövriyyəsi hazırlancaq layihə üzrə təklif etdiyi qiymətdən 2 dəfə çox olmalıdır və bu haqda iddiaçı təsdiqedici sənədləri təqdim etməlidir;

-İddiaçının ən azı 500 min manat məbləğində səlahiyyətli bankdan kredit almaq imkanı olmalıdır və bu imkan haqqında təsdiqedici sənəd təqdim olunmalıdır;

-Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişlər üzrə öhdəliklərin olub-olmaması barəsində aidiyyəti orqanlardan rəsmi arayışlar təqdim edilməlidir;

- İddiaçının 2017-ci il üçün təqdim edilmiş mənfəət vergisi bəyannaməsində minimum 200 min manat məbləğində xalis mənfəəti olmalıdır (vergilər orqanı tərəfindən təsdiq edilmiş).

Oferent nəzərdə tutulan işlərin təşkili strukturunu və tətbiq edəcəyi təməl metodologiyalarının qısa təsvirini, qarşıya qoyulan məqsədə çatmaq üçün istifadə edəcəyi vasitələri, üzərinə düşən tapşırıq və problemlərin həlli prinsiplərini, o cümlədən, işlərin mərhələli icra müddətlərini təqdim etməlidir.

Təklif edilmiş texniki həllər barədə maraqlı tərəflərin razılığı və layihənin ekspertizası da daxil olmaqla, maliyyə təklifi işin strukturuna və digər məsrəflərə uyğun olaraq, smeta hesabatı, yaxud icra olunacaq əməliyyatları təsvir edən cədvəllər şəklində təqdim edilir.

Bərpa Agentliyi tərəfindən öncə keçirilən tenderlərdə iddiaçıların axırıncı 5 ildə hazırladığı, yüksək keyfiyyətlə və vaxtında qəbul edilmiş və inşa olunmuş layihələrin olması bir qayda olaraq nəzərə alınacaqdır.

Tender haqqında hərtərəfli məlumat almaq üçün iddiaçılar aşağıdakı ünvana müraciət edə bilərlər:

Azərbaycan Respublikası, Bakı şəhəri, İbrahimpaşa Dadaşov küçəsi 260, III mərtəbə.

Elmir Abdullayev - planlaşdırma üzrə menecer. Tel.: (+99412) 5617097; Faks: (+99412) 5617098;

Azərbaycan Respublikası Satınalmalar üzrə Qanununun 28-ci maddəsinə asasən iddiaçılar öz texniki sənədlərini tender prosedurunun başlanmasından əvvəl, yəni 20.11.2018-ci il tarixdə saat 13.00-a kimi Tender Komissiyasına təqdim etməlidirlər. Texniki sənədlərinin açılması həmin gün 20.11.2018-ci il tarixdə saat 14.30-da Bərpa Agentliyinin ofisində keçiriləcəkdir.

Tender iştirakçıları öz texniki sənədlərini bağlı, möhürlənmiş zərflərdə, 2 nüsxədə təqdim etməlidilər (Əsli və surəti). Qiymətləndirmə zamanı iddiaçıların ancaq texniki-ixtisas sənədləri yoxlanılacaqdır. Meyarlara cavab verməyən təkliflər kənarlaşdırılacaqdır. Bu yoxlamanın müsbət nəticəsini qazanan iddiaçıların maliyyə təklifləri qəbul ediləcəkdir.

Tenderdə iştirak etmək üçün iddiaçılar geri qaytarılmayan 1000 manat məbləği Bərpa Agentliyin hesabına:

*Azərbaycan Respublikası Beynəlxalq Bankı, “ABB Premyer” müştəri xidməti, Kod: 805250; VÖEN: 9900001881; Müxbir hesabı: AZ03NABZ01350100000000002944; S.W.İ.F.T. Kodu: BİC: İBAZAZ 2X, Hesab №-si: AZ32İBAZ38030029449330720120, VÖEN1: 1400294891 köçürməlidirlər.*

Möhürlənmiş zərflərdə ixtisas seçimi keçən iddiaçıların maliyyə təklifləri 29 noyabr 2018-ci il tarixdə yerli vaxtla saat 13.00-dək Tender Komissiyasına təqdim edilməlidir. İddiaçıların maliyyə təklifləri yuxarıda göstərilən ünvanda 30 noyabr 2018-ci il tarixdə saat 14.30-da iddiaçıların iştirakı ilə açılacaqdır.

Tenderin maliyyə təklifləri zərflər açıldıqdan sonra 30 təqvim günü müddətində qüvvədə qalır. İddiaçılar tender təklifi ilə birgə 2% məbləğində tender bank zəmanəti təqdim etməlidirlər. Bu zəmanətin qüvvədə qalma müddəti 60 təqvim günü hesab olunur.

**Azərbaycan Respublikası**
**Ərazilərinin Bərpası və**
**Yenidən Qurulması üzrə Agentliyin**
**Tender Komissiyası.**

TƏKRAR

## Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi

## AÇIQ TENDER ELAN EDİR

**Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi (Komitə) “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə əsasən 3 lot üzrə açıq tender keçirir:**

**Lot 1** - Komitənin Aparatı üçün 2018-ci il ərzində tələb olunan digər maşın və avadanlıqlar;

**Lot 2** - Komitənin Aparatı üçün 2018-ci il ərzində tələb olunan inventarlar;

**Lot 3** - Proqram təminatının və proqram təminatının modullarına texniki dəstəyin satın alınması.

Görüləcək işlərin tərkibi və həcmi haqqında ətraflı məlumat tenderin əsas şərtlər toplusunda verilir.

Tenderdə iştirak etmək istəyənlər Azərbaycan dilində tərtib olunmuş açıq tenderin əsas şərtlər toplularını Komitənin aşağıda qeyd olunmuş hesabına hər bir lot üzrə 200 (iki yüz) Azərbaycan manatı məbləğində iştirak haqqını ödədikdən sonra Komitəyə rəsmi müraciət edərək Bakı şəhəri, Füzuli küçəsi, 65 ünvanından əldə edə bilərlər:

*VÖEN: 1400032621;*
*Hesab: 2278501;*
*Bankın rekvizitləri:*
*Adı: Dövlət Xəzinədarlıq Agentliyi;*
*Kodu: 210005;*
*VÖEN: 1401555071*
*Müxbir hesabı: AZ41NABZ01360100000000003944,*
*SWİFT.BİK.CTREAZ22.*

**Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tender iştirakçılarının müqaviləni yerinə yetirmək üçün lazımi maliyyə və texniki imkanlara malik olması tələb olunur.

Tenderdə iddiaçı kimi iştirak etmək istəyənlər 20 noyabr 2018-ci il tarixində yerli vaxtla saat 16:00-dək Komitəyə aşağıda qeyd edilmiş sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün ərizə;*
*-iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi (əsli);*
*-iştirakçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*-müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
*-iştirakçının son bir ildəki maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
*-iştirakçının son bir ildəki fəaliyyəti barədə vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*-iştirakçının vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin olmamasına dair müvafiq rayon vergilər idarəsi və Dövlət Sosial Müdafiə Fondu tərəfindən verilmiş arayışlar;*
*-tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
*-iştirakçının müflis elan olunmaması, əmlakı üzərində həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə arayış.*

İddiaçılar Azərbaycan dilində, iki nüsxədə (əsli və surəti olmaqla) tərtib edilmiş tender təklifini və tender təklifi qiymətinin 1 faizi həcmində bank təminatını bağlanmış, imzalanmış və möhürlənmiş ikiqat zərfdə 29 noyabr 2018-ci il yerli vaxtla saat 16:00 qədər Komitəyə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

İddiaçı öz tender təklifində satınalma müqaviləsi ilə əlaqədar tətbiq olunacaq bütün növ vergiləri (ƏDV daxil olmaqla) nəzərə almalıdır.

İddiaçının tender təklifinin qüvvədə olma müddəti zərflərin açıldığı tarixdən sonra azı 30 bank günü qüvvədə olmalıdır, tender təklifi ilə birlikdə təqdim olunan tender təklifi qiymətinin 1 faizi həcmində bank təminatının qüvvədə olma müddəti isə tender təklifinin qüvvədə olma müddətindən azı 30 bank günü çox olmalıdır.

İddiaçıların təklifinin qiymətləndirilməsi zamanı satınalan təşkilat xarici iddiaçıların tender təklifləri (idxal olunan mallar, işlər və xidmətlər üzrə) ilə müqayisədə yerli iddiaçıların tender təkliflərinin (mallar, işlər və xidmətlər üzrə) xeyrinə 20 faizə qədər həcmində güzəştli düzəliş tətbiq edəcəkdir.

İddiaçıların tender təklifləri olan zərflərin açılışı 30 noyabr 2018-ci il tarixində yerli vaxtla saat 16:00-da Bakı şəhəri, Füzuli küçəsi, 65, III mərtəbədə yerləşən Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin iclas zalında keçiriləcəkdir.

İddiaçıların səlahiyyətli nümayəndələri tender təklifi zərflərinin açılış prosedurunda iştirak etməyə dəvət olunurlar.

**Əlaqələndirici şəxs: Təyyar Əliyev (telefon: +994 12 493-34-67 (əlavə 113).**

**Tender Komissiyası.**

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ
RESPUBLİKA
REKLAM VƏ ELAN XİDMƏTİ
441-20-23

## BİLDİRİŞ

“Respublika” qəzetinin 26-27 sentyabr və 6 oktyabr 2018-ci il tarixli saylarında Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Xidmətinin dərc olunmuş tender elanının müddətinin artırılması barədə Tender prosedurundakı zərflərin açılışı 16 noyabr 2018-ci ildə saat 10:00-da Dövlət Fitosanitar Xidmətinin akt zalında keçiriləcəkdir. Tender təklifi və bank təminatı möhürlənmiş ikiqat zərfdə 15 noyabr 2018-ci il saat 17:00-a qədər, digər sənədlər isə 05 noyabr 2018-ci il saat 17:00-a qədər Bakı şəhəri, Nərimanov rayonu, Nəcəf Nərimanov 7a ünvanına təqdim olunmalıdır.

**Tender Komissiyası.**

Ağamirova İradə Yaşar qızının adına Hüquqların Dövlət Qeydiyyatı haqqında Daşınmaz Əmlakın Dövlət Reyestri tərəfindən verilən MH 0017715 №-li Çıxarış itdiyi üçün etibarsız sayılır (ünvan: Bakı şəhəri, Binəqədi r-nu, 9 mkr, A.Məmmədov küç., ev 55, mənzil-25).

Lənkəran rayon aqrar islahat komissiyasının 18 iyun 1998-ci il tarixli 11 nömrəli qərarı ilə Horavenc kənd sakini Baxşiyev Əzizağa Hacı oğluna verilmiş Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN 0037; KOD 80211018) itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
Teymur ƏHMƏDOV

● Redaksiyanın telefonları:

İqtisadiyyat və islahatlar redaksiyası: 539-95-51;
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: 538-55-20;
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: 539-26-18;
Humanitar siyasət redaksiyası: 538-25-70;
Xəbərlər redaksiyası: 538-61-02;
İctimai rəy və sosial problemlər redaksiyası: 539-95-51; 538-43-41 tel/faks;
Qəbul otağı: 538-25-70;
Katiblik: 538-25-70;
Reklam və elan xidməti: 441-20-23.



● Redaksiyanın ünvanı:

AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
E-mail: resp@azdata.net
www.respublica-news.az

“Respublika” qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.
Qeydiyyat № 7.

İndeks 0240
Tiraj 4292
Sifariş 023
Qəzetin satış qiyməti 40 qəpik

Məsul növbətçi
Müşfiq MİRZƏ

● Çapa imzalanmışdır
27.10.2018